Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20-22 İYUN 2020-ci il

№ 98 (4229)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «VALDAY» KLUBU, AŞQABAD SAMMİTİ, DAVOS FORUMU - PAŞİNYANIN ƏLİYEVLƏ ÜZ-ÜZƏ DEBATDA 4-cü RÜSVAYÇI MƏĞLUBİYYƏTİ...

səh. 8


Azərbaycan Prezidenti Volkan Bozkırın BMT Baş Assambleya sədri seçilməsinə bu qədər böyük önəm verdi - səbəblər... səh. 5

Paşinyanın Qarabağ danışıqlarının mahiyyətini və formatını məhv etmək səyləri iflasda - Məsələ "Şərq Tərəfdaşlığı" Zirvəsində aktuallaşdırıldı... səh. 6

Azərbaycan beynəlxalq miqyasda Ermənistanı diz çökdürür - müxtəlif təşkilatların davamlı olaraq erməni təcavüzünü ifşa edən sənədləri... səh. 9

BMT-də Ermənistanın təcavüz siyasətinə birmənalı zərbə - rəsmi Qarabağ sənədi yayıldı... səh. 6

Azərbaycanın erməni faşizmi barədə dediklərini düşmən ölkədə də qəbul etməyə başlayırlar... "Hakimiyyət faşizmə xas qaydada hərəkət edir" fikri gündəmdə... səh. 10

Paşinyan "Şərq Tərəfdaşlığı" ölkə başçılarının Zirvəsində "şou" göstərdi - tək kompyuter qarşısında maska ilə? səh. 11

Ermənistan Türkiyə və Rusiya arasında sıxışmış durumda... İsveç mətbuatında İrəvanı şoka salan iddia... səh. 12

Azərbaycan karantin qaydalarını sərtləşdirən tək ölkə deyil, bütün dünya... səh. 14





səh. 3

## Bütün Avropanın qarşısında iki lider və iki ölkə - Əliyev 29 xarici dövlətə milyonlarla yardım edir, Paşinyan Avropadan 92 milyon diləndiyini dilə gətirir...


"Azərbaycanda koronavirusla mübarizə çərçivəsində qəbul edilən son qərarlar zəruri xarakter daşıyır" səh. 3





Paşinyanın açıq diktatura siyasətinə Qərbin ikili standart sükutunu pozan yeganə səs - Avropa Xalq Partiyası... səh. 11







Paşinyan sülh danışıqlarına qarşı təxribatçı ideyasını yenə təkrarladı, Prezident Əliyevdən tutarlı fakt zərbəsi aldı - «Tərəfdaşlıq prioritetləri» sənədi var... səh. 4

«Şərq Tərəfdaşlığı» Zirvəsində Paşinyandan əməkdaşlıq barədə sadəcə söz yığını, Əliyevdən isə praktik nümayiş - «Cənub Qaz Dəhlizi»... səh. 5





Paşinyan irqçiliyin nə olduğunu bilmədiyini göstərdi - Avropa Məhkəməsinin qətnaməsi necə təhrif edildi... səh. 7

Karantin qaydalarının 1 avqustadək uzadılmasından yan keçə bilərdik - vətəndaşlarımızın məsuliyyəti sonadək bütöv olsaydı... səh. 13



## Baş nazir karantin rejiminin uzadılması barədə qərar imzaladı

**Baş nazir Əli Əsədov xüsusi karantin rejimi müddətinin uzadılması barədə qərar imzalayıb.**

Baki-xeber.com xəbər verir ki, qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 1 avqust saat 00:00-dək uzadılıb.

"Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 may tarixli 178 nömrəli Qərarının 1-ci hissəsində "15 iyul" sözləri "1 avqust" sözləri ilə əvəz edilib.

## Bir valideynin "Dünya" məktəbi ilə bağlı sualı - 500 manat güzəştə görə münasibətləri korlamağa dəyərmi...

**Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbinin şagirdlərindən birinin valideyni Ruhəngiz Göyüşova digər valideynlərə müraciətlə məktub göndərib. Baki-xeber.com-un xəbərinə görə, məktubun mətni belədir:**

"Hörmətli valideynlər! Bir qrup valideyn tərəfindən sosial şəbəkələrdə yayılmış və hökumət nümayəndələrinə ünvanlanmış məktubla bağlı hiddətimi və narazılığımı bildirmək istəyirəm. Güzəşt məsələsinin müzakirəsinin əvvəlində demişdim ki, bunu ictimaiyyətin müzakirəsinə çıxarmaq düzgün deyil. Lakin bir qrup valideyn sona qədər getmək qərarı aldı. Siz nəyə nail olmağa çalışırsınız? 500 manat güzəşt üçün münasibətləri korlamağa dəyərmi? Ən önəmlisi, övladlarınız sizin bu davranışınızdan məmnundurlarmı? Onlar balaca deyillər və hər şeyi çox gözəl görürlər. Siz məktəbin və övladlarınızın təhsili üçün səylə çalışan müəllimlərin yüzlərlə manat dəyərində olan əməyini qiymətləndirmədiniz. Bizim məktəb minimal ödəniş müqabilində maksimal nəticə verir. Bakıda bu məbləğə, bu keyfiyyətdə İB təhsili verən məktəb tapa bilərsinizmi? Özəl məktəbin öz qaydalarına uyğun işləmək hüququ var və narazı valideynlər övladlarını məktəbdən çıxara bilərlər. Məktəblə heç bir əlaqəm yoxdur, mən də sizin kimi valideynəm. Ancaq bəzi valideynlərdən fərqli olaraq müsbət tərəfləri görə bilirəm. Mən məktəbi dəstəkləyən valideynlərdən xahiş edirəm ki, öz razılıqlarını mənə poçtla (ruhangizgoyushova@yahoo.com) ünvanlasınlar və biz məktəbimizin bütün üstünlüklərini, eyni zamanda, keyfiyyətini göstərən bir məktub yazaraq, müəllimlərimizə və məktəb rəhbərliyinə dəstək olaq".

# Azərbaycan Prokurorluğu tarixində ilk - Xanım prokurorluq əməkdaşları rayon prokuroru vəzifələrinə təyin olundu

**Ölkənin prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə gənc və peşəkar kadr korpusunun komplektləşdirilməsi istiqamətində institusional islahatlar davam etdirilir.**



Baş Prokurorluğun Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlərlə İbrahim Ləmbəranski Bakı şəhərinin Sabunçu, Rəşid Mahmudov Suraxanı, Elman Süleymanov Yasamal, Hidayət Nurəlibəyov Nərimanov, Həsən Hənifəyev Nəsimi rayonlarına prokuror vəzifəsinə təyin ediliblər.

Bundan başqa, Baş prokurorun imzaladığı digər əmrlərlə Taryel Ələkbərov Lənkəran, Namiq Məmmədov Quba, Ramin Hüseynov Göyçay, Ceyhun Almasov Yevlax rayonunun prokurorları, Elşən Albəndov Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini, Yadigar Aslanov isə Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin Müraciətlərə ilkin baxılması şöbəsinin rəisi - idarə rəisinin müavini vəzifələrinə təyin ediliblər.

Bununla yanaşı, müstəqil Azərbaycan Prokurorluğunun tarixində ilk dəfə olaraq xanım prokurorluq əməkdaşları vəzifədə irəli çəkilərək müstəqil rayon prokuroru vəzifələrinə təyinatlar alıblar.

Belə ki, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Bakı şəhəri Nizami rayon prokurorunun köməkçisi Səadət Rüstəmova tutduğu vəzifədən azad edilərək Qobustan rayon prokuroru, Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror - metodisti Lalə Hüseynova isə tutduğu vəzifədən azad edilərək Zəngilan rayon prokuroru vəzifələrinə təyin ediliblər.

Baş Prokurorluğun yeni strukturuna uyğun olaraq kadr islahatları davam etdiriləcək.

# İkihəftəlik xüsusi karantin rejimində vətəndaşlar yaşayış yerini SMS icazə ilə gündə bir dəfə 2 saatlıq tərk edə biləcəklər

*Yaxın qohumun dəfnində iştirak etmək üçün isə 102-dən icazə alınmalıdır*

**Nazirlər Kabinetinin qərarına əsasən, vətəndaşlar 21 iyundan 5 iyula qədər evdən çıxmaq üçün 8103 nömrəsinə SMS - məlumat göndərməlidirlər.**

SMS məlumatın mətnində aşağıdakı iki indeksdən biri və şəxsiyyəti təsdiq edən məlumat qeyd edilməlidir

- 1 rəqəmi - təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə rayon və şəhər daxilində 2 (iki) saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);

- 2 rəqəmi - ərzaq və digər gündəlik tələbat mallarının, dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin, açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə 2 (iki) saat müddətinə gündə 1 dəfə verilir, dövlət xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk edən şəxslər üçün geri qayıtma müddəti müvafiq dövlət qurumu tərəfindən verilən arayışla müəyyən edilir).

Şəxsiyyəti təsdiq edən məlumatlar aşağıdakılardır:

Azərbaycan Respublikasının vətəndaşları üçün - şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi (məsələn, AZE 11111111);

- Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün - Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin seriyası və nömrəsi (MYİ (DYİ) 1111111);

- Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün - müvəqqəti olma müddətinin uzadılması barədə qərarın seriyası və nömrəsi (MOM 1111111); nümunə: ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün 2 AZE 1111111 məzmunlu SMS - məlumatı göndərilməlidir.

- Elektron Hökumət informasiya sistemindən gələn cavab SMS - məlumatda icazənin qüvvədə olduğu müddət göstərilir. Şəxs yaşayış yerini və olduğu yeri yalnız müsbət cavab aldıqdan sonra tərk edə bilər.

- Həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS - məlumatın göndərilməsi tələb olunmur. Həmçinin, şəxslər məhkəməyə və ya hüquq-mühafizə orqanlarına çağırıldıqda SMS - məlumat göndərilmədən yaşayış yerini və olduğu yeri tərk edirlər. Bu halda onlar məhkəməyə və ya hüquq-mühafizə orqanına çağırılmalarına dair sənədi polis əməkdaşlarının tələbi ilə onlara təqdim etməlidirlər.



- SMS - icazə sistemindən istifadə qaydaları və SMS göndərilməsi ilə bağlı yaranan çətinliklərlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmətin) 9108 Çağrı Mərkəzinə müraciət edilə bilər.

- Yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün hər bir şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

- Bu qərarda nəzərdə tutulmuş qaydada şəxslərin hərəkəti zamanı onların üzərlərində şəxsiyyəti təsdiq edən sənədlərin olması məcburidir.

## Azərbaycanda 438 nəfərdə koronavirus aşkarlandı, 133 nəfər sağaldı, 4 nəfər vəfat etdi

**Azərbaycanda 438 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, 133 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Bu barədə baki-xeber.com-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Qeyd olunub ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 11 767 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 6 325 nəfər müalicə olunaraq sağalıb, 143 nəfər vəfat edib, 5 299 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Dünən 6 976 koronavirus testi aparılıb. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 410 475 test aparılıb.

**İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammitində bütün dünya üçün Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın hökumət başçısı Nikol Paşinyanın fəaliyyətinə qiymət vermək şansı yarandı. Daha doğrusu, İlham Əliyev növbəti dəfə Paşinyana öz yerini göstərməklə həmin ölkənin pandemiayadan da istifadə edib diləndiyini ifşa etdi.**

# Bütün Avropanın qarşısında iki lider və iki ölkə - Əliyev 29 xarici dövlətə milyonlarla yardım edir, Paşinyan Avropadan 92 milyon diləndiyini dilə gətirir...

## *Elşən Həsənov: "Paşinyan bu yardımla hansısa məsələləri çözmək, müəyyən problemləri həll etmək niyyətindədir"*



Bir daha göründü ki, Ermənistanın baş naziri yalnız daxili auditoriyaya hesablanan çıxışlarında beynəlxalq aləmin tanımadığı "Artsax" ifadəsini işlədir. Paşinyanın sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin "ingilis dili səviyyəsini" göstərdi. O, əvvəlcədən hazırlanan çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilmədi. Çıxış yolu erməni dilində danışmaq idi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün təcili ehtiyacların ödənilməsi və təsirin azaldılması məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını da qeyd etdi. Azərbaycan Prezidenti isə çıxışında vurğuladı ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırıb. Eyni zamanda, Azərbaycan 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də dərin uçurumun mövcudluğunu nümayiş etdirən tutarlı faktdır. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün sadəcə pul dilənir.

Ölkələrin bu istiqamətdə kənardan görünüşü nələri söyləməyə əsas verir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, bu müqayisə Ermənistanın hansı səviyyədə olduğunu bir daha üzə çıxarmış oldu:"Məlum olduğu kimi, koronavirus pandemiyası Cənubi Qafqaz regionundan da yan keçməyib. Gürcüstan, Azərbaycan və Ermənistanda minlərə insan COVİD-19-dan müalicə alır. Bu ölkələrin koronavirusla mübarizədə əldə etdiyi nəticələr müxtəlifdir. İstər ərazi (29,8 min kv. km), istərsə də əhali sayı baxımından (2,9 milyon) Cənubi Qafqazın ən kiçik ölkəsi Ermənistan pandemiyanın mənfi göstəricilərinə görə regional liderdir. 69,7 min kvadrat kilometr sahəsi və 3,7 milyon sakini olan Gürcüstanda koronavirusla bağlı mayın 22-nə qədər fövqəladə vəziyyət mövcud olub. Ərazisinin böyüklüyünə (86,6 min kvadrat kilomter) və əhalisinin çoxluğuna görə (10 milyon) Cənubi Qafqazın lider ölkəsi Azərbaycan virusla mübarizədə də ön pillədədir. Belə ki, istər koronavirusdan sağalanların çoxluğuna, istərsə də ölü sayının azlığına görə Azərbaycan Ermənistan və Gürcüstanı geridə qoyur. Bununla yanaşı, Azərbaycan nadir ölkələrdəndir ki, pandemiya ilə mübarizədə heç kimdən yardım istəməyib, əksinə, başqa dövlətlərə və ÜST-ə yardım edib. Bu, ölkənin qüdrətinin, gücünün göstəricisidir. Ermənistanın dilənçi mahiyyəti hamıya məlum idi. İndiyə kimi də onlar ölkəni dünyadakı erməni diasporundan pul dilənərək ayaqda saxlayıblar. Belə bir xəstəliyin olması onlara yaxşı şans verdi. Paşinyan Avropa İttifaqına maliyyə yardımı ilə bağlı hələ hakimiyyətə gəldiyi ilk günlərdə müraciət edib. Amma bu müraciət Aİ tərəfindən maraqsız qarşılanmışdı. Avropa İttifaqı dəfələrlə Ermənistana kredit ayrılmaqla bağlı niyyətinin olmadığını açıqlasa da, Painyan israrlı şəkildə onlardan pul istəyirdi. Bəllidir ki, kredit hər hansı məqsədə, layihəyə görə ayrılır. Ermənistanda isə Aİ üçün maraqlı olan heç bir layihənin olmadığını nəzərə alsaq, Aİ rəsmiləri də bu niyyətdə olmadıqlarını açıqlayırlar. Paşinyanın Avropa İttifaqından maliyyə vəsaiti istəməsi Ermənistanın acınacaqlı vəziyyətindən xəbər verir.

Xəstəliklə bağlı olunan yardım isə məcburiyyətdəndir. Çünki Ermənistan bununla bütün dünyanı şantaj edir ki, virusu hər yerə yaya bilərlər. Paşinyan bu yardımla hansısa məsələləri çözmək, müəyyən problemləri həll etmək niyyətindədir. Bildiyiniz kimi, Ermənistanda çox ağır sosial-iqtisadi vəziyyət hökm sürür. Yəqin ki, o, vətəndaşlarının pensiya təminatı, maaşların verilməsi kimi məsələləri həll etmək istəyir. Bu, eyni zamanda, Ermənistanın hansı səbəbdən belə dilənçi vəziyyətə düşdüyünü üzə çıxarır. Şübhəsiz ki, Ermənistan öz işğalçı siyasətinə son qoysaydı, vəziyyəti belə katastrofik olmazdı. Amma görünən budur ki, Ermənistan dilənçi halından belə utanmır".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Azərbaycanda koronavirusla mübarizə çərçivəsində qəbul edilən son qərarlar bütün dünyada pandemiyanın yayılma templərinin artmasına və ölkəmizdə sırf vətəndaş məsuliyyətsizliyi üzündən yeni dalğa təhlükəsinin özünü real olaraq göstərməsinə tam adekvat və zəruri xarakter daşıyır.**

# Aydın Quliyev: "Azərbaycanda koronavirusla mübarizə çərçivəsində qəbul edilən son qərarlar zəruri xarakter daşıyır"




Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, karantin müddətinin uzadılması və xüsusi karantin məhdudiyyətlərinin yenidən bərpası zəruri olmaqla xalqımızın təhlükəsizliyinə və sağlamlığına daha möhkəm əsaslar yaratmaq məqsədindən irəli gəlir:"Xüsusi karantin məhdudiyyətlərinin bərpası cəmiyyətimizə və hər bir vətəndaşa qlobal bəla ilə mübarizəyə öz şəxsi töhfələrini verə bilmək üçün yeni şans kimi dəyərləndirilə bilər. Vətəndaşlarımız bu şansdan maksimum səmərəli istifadə edərək lazımi məsuliyyəti nümayiş etdirə bilsə, dünya ölkələrində nəyin baş verməsindən asılı olmayaraq, Azərbaycanı koronavirusdan həqiqətən tam və etibarlı mühafizə olunan ölkəyə çevirə biləcəyik.

Heç kimə sirr deyil ki, koronavirusla mübarizə mövzusunda ölkəmiz ilk əvvəldən yaxşı mənada öncüllər sırasında olub. Pandemiyanın nəzarət altına alınmasında, sistemli mübarizə modeli yaradılmasında və pandemiya şəraitində insanların rifahının ən səmərəli müfafiə mexanizmlərinin tətbiqində əksər ölkələri qabaqlaya bildik.

Hətta hamıdan əvvəl olaraq yoluxanlarla sağalanların say nisbətindəki müsbət dinamikanı ikincinin xeyrinə dəyişə bildik. Elə günlər var idi ki, sağalanlar virusa yoluxanlarln sayını hətta ikiüç dəfə üstələyirdi. Bunlar, sözsüz ki, koronavirusla mübarizə tarixində xalqımıza, dövlətimizə və hər bir məsuliyyətli vətəndaşa qürur verən faktlardır. Koronavirusla mübarizədə bütün uğurlar şəxsən Prezident İlham Əliyevin bu mövzuda da gündəlik və sistemli düşüncə və fəaliyyətlərinin praktik təcəssümü ilə bağlıdır".

A.Quliyev deyib ki, ölkəmizin fədakar tibb personalının səyləri və məsuliyyətli vətəndaşların davranışları da öz həlledici rolunu oynadı:"Lakin bu gün karantin müddətinin uzadılması qərarı hər bir vətəndaşı düşündürməlidir və hər kəs qəbul etməlidir ki, koronavirusla mübarizədə dövlət başçısının və dövlət orqanlarının nümayiş etdirdiyi məsuliyyət və fədakarlıq qədər cəmiyyətimiz fədəkar və məsuliyyətli ola bilmədi. Əgər cəmiyyətimizdə məsuliyyət hissi bütöv və kollektiv xarakter daşısaydı, bəlkə də xüsusi qaydaları uzatmağa bu qədər ehtiyac yaranmazdı.

**Karantin qaydalarının uzadılması qərarı bir daha Azərbaycan dövlətinin qlobal təhlükəsizlik ideyasına və öz xalqımızın mənafelərinə nə qədər bağlı olduğunu göstərir. Həm də onun ifadəsidir ki, pandemiya üzərində son və qəti qələbəmiz hər bir Azərbaycan vətəndaşının anlayışlı və məsuliyyətli davranışları ilə birbaşa bağlıdır".**

**Azərbaycan Prezidenti İlham Əliyev iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində çıxışı zamanı Ermənistanın baş naziri Nikol Painyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı növbəti məsuliyyətsiz bəyanatına kəskin cavab verib.**

# Paşinyan sülh danışıqlarına qarşı təxribatçı ideyasını yenə təkrarladı, Prezident Əliyevdən tutarlı fakt zərbəsi aldı - "Tərəfdaşlıq prioritetləri" sənədi var...

## **Elşən Mustafayev:** *"Ermənistanın rəsmi dairələrinin əsassız bəyanatları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Dağlıq Qarabağ probleminin həlli prosesinin qarşısını ala bilməyəcək"*



Nikol Paşinyan həmin formatda Qarabağ danışıqları prosesi üçün pozucu mövqeyini yenidən bəyan etdi. O, əvvəlki bəyanatlarını təkrar edərək bildirdi ki, problem öz həllini Azərbaycan, Ermənistan və "Artsax" xalqları arasında məqbul variantda tapmalıdır. İlham Əliyevin ona cavabı isə sərt və məntiqli oldu:"Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

Paşinyanın münaqişənin həlli ilə bağlı sülh danışıqlarına xələl sayılan mövqeyini davam etdirməsi nə ilə izah oluna bilər?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanın illərdən bəri ən yüksək səviyyədə dünyaya bəyan etdiyi həqiqət belədir: Azərbaycan dövləti heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına razı olmayıb və gələcəkdə də buna imkan verməyəcək:"Bunu Ermənistan rəhbərliyi dəqiq bildiyi üçün belə təxribatçı bəyanatlar verir. Bu cür bəyanatlar həm sülh danışıqlarının ruhuna ziddir, həm də hər iki ölkənin tərəfdar çıxdığı beynəlxalq konvensiyalara uyğun deyil. Bəli, ölkə başçısı doğru qeyd edib ki, iki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan buna əməl etməyə borcludur. Ermənistan tərəfi bu mövqeyini istər Paşinyanın, istərsə də başqa rəsmilərinin dilli ilə ifadə edib. Bir müddət əvvəl ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Cenevrədə Azərbaycan və Ermənistan Xarici işlər nazirləri arasında keçirilən görüşdən dərhal sonra Ermənistan XİN-in sözçüsü Anna Nağdalyan sülh prosesinə "Artsax xalqının seçilmiş nümayəndələrinin" cəlb edilə biləcəyi kimi təxribat xarakterli fikir səsləndirməklə, danışıqlara kölgə salmağa cəhd etmişdi. Ermənistan tərəfi aparılan danışıqların həssas məqamlarında bu cür təxribatçı metodlardan istifadə edərək münaqişənin sülh yolu ilə tənzimlənməsinə həmişə əngəllər yaradır. "Artsax xalqı" deyilən anlayış yoxdur, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan xalqının tərkib hissəsidir və Azərbaycan vətəndaşlarıdır. Heç bir əsası olmayan "Artsax xalqı" anlayışına dəfələrlə aydınlıq gətirilsə də, Ermənistan hər dəfə bu məsələni gündəmə gətirməklə özünün qeyri-konstruktiv mövqeyini ortaya qoymuş olur və dünya ictimaiyyəti tərəfindən qınaq obyektinə çevrilməkdən də çəkinmir.

Ermənistanın hakim dairələrinə bu məsələdə ən tutarlı cavabı ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçi şəhərində "Valday" beynəlxalq klubunun sessiyasında verdi və bəyan etdi ki, "Dağlıq Qarabağ xalqı" məfhumu yoxdur, Dağlıq Qarabağın əhalisi var". Dağlıq Qarabağ əhalisinin bərabərhüquqlu azərbaycanlı və erməni icmalarından ibarət olmasına dair mövqenin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin keçən il verdikləri bəyanatlarda və Rusiya xarici işlər naziri Serqey Lavrovun Bakıya səfəri zamanı verdiyi açıqlamasında təkrarlandığının şahidi olduq.

Bu məsələ 1992-ci ilin 24 mart tarixli ATƏT-in Helsinki Nazirlər Şurasının sənədində də təsbit olunub. Ermənistanın rəsmi dairələrinin əsassız bəyanatları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Dağlıq Qarabağ probleminin həlli prosesinin qarşısını ala bilməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan Prezidenti Volkan Bozkırın BMT Baş Assambleya sədri seçilməsinə bu qədər böyük önəm verdi - səbəblər...

## Fərəc Quliyev: "Burada yalnız milli təəssübkeşlik yox, həm də hadisənin siyasi mahiyyətinə ciddi önəm verilir"

**Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib. Məktubda deyilir:"Hörmətli cənab Prezident, Əziz Qardaşım. Qardaş Türkiyə Respublikasının nümayəndəsi cənab Volkan Bozkırın Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Sədri vəzifəsinə seçilməyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.**



Sizin rəhbərliyiniz altında həyata keçirilən Türkiyə diplomatiyasının ardıcıl və uğurlu fəaliyyəti sayəsində ölkəniz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Şəxsi təşəbbüsünüzün nəticəsində BMT sistemi tarixində Türkiyə nümayəndəsinin ilk dəfə belə mühüm vəzifəyə seçilməsi xəbəri bizi olduqca sevindirdi.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri birgə səylərimizlə çoxtərəfli müstəvidə də uğurla davam edəcək.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim rifah diləyirəm".

Azərbaycan Prezidenti Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının yeni seçilmiş Sədri Volkan Bozkırın özünə də təbrik məktubu göndərib. Məktubda deyilir:"Hörmətli cənab Bozkır, Birləşmiş Millətlər Təşkilatının yaranmasının 75 illik yubileyi ərəfəsində Baş Assambleyanın Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

BMT sistemi tarixində qardaş Türkiyə Respublikasının nümayəndəsinin belə yüksək vəzifəyə seçilməsi bizi olduqca sevindirir.

Azərbaycan Respublikası həm BMT-nin üzvü, həm də Qoşulmama Hərəkatının hazırkı sədri qismində Sizinlə yaxından əməkdaşlıq etməyə, əlaqələrimizi hərtərəfli genişləndirməyə hazırdır.

Əminəm ki, Sizin diplomatiya sahəsindəki peşəkarlığınız, çoxillik təcrübəniz Baş Assambleyanın qarşısında duran vəzifələrin icrasına mühüm töhfə verəcək, dünyada multilateralizmin inkişafına xidmət edəcəkdir. Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram".

Göründüyü kimi, Prezident İlham Əliyev türk diplomatının belə yüksək posta seçilməsi ilə bağlı həm onun özünü, həm də Türkiyə prezidentini ayrıca təbrik edib. Prezidentin bu hadisəyə yüksək önəm verməsinin səbəbi nədir?

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu bütün türk dünyası üçün böyük əhəmiyyətə malik hadisədir: "Bunun alt təməlində olduqca ciddi detallar dayanır. Azərbaycan tərəfi türk dövlətləri arasındakı inteqrasiya üçün əlindən gələn hər nə varsa edir. Biz öz iqtisadi investisiyalarımızın böyük həcmini də türk dövlətlərinə qoymaqda maraqlıyıq. Eyni zamanda, bütün siyasi oyunlarda birmənalı olaraq Türkiyəyə bacardığımız dəstəyi veririk. Xatırlayırsınızsa, Türkiyənin iştirakı olmadığı bir beynəlxalq tədbirdə Ermənistan rəhbəri qardaş ölkənin arxasınca danışmışdı. Bizim Prezident demişdi ki, Türkiyənin təmsilçisi burda yoxdursa, mən burdayam. Bunun özü Azərbaycanın türk dünyasına hansı münasibətdə olduğunun bariz nümunəsi sayıla bilər. Dünyadakı yeni düzənin qurulmasında bu yaxınlaşmanın daha da aktual olduğu ortaya çıxır. Hesab edirəm ki, yeni təmərküzləşmədə türk ölkələrinin bir yerdə olması, onların müxtəlif təsisatlarında yüksək təmsilçiliyi bütün türk cümhuriyyətlərinə xeyir verəcək haldır. Bunu Azərbaycan Prezidenti gözəl bildiyi üçün həmin diplomatın təyinatına belə önəm verir. Burada yalnız milli təəssübkeşlik yox, həm də hadisənin siyasi mahiyyətinə ciddi önəm verilir. Mən Prezidentin bu addımını dəstəkləyirəm və hesab edirəm ki, Azərbaycan belə tip hadisələrə elə bu kontekstdən yanaşmalıdır".

*Məhəmmədəli* ***QƏRİBLİ***

# "Şərq Tərəfdaşlığı" Zirvəsində Paşinyandan əməkdaşlıq barədə sadəcə söz yığını, Əliyevdən isə praktik nümayiş - "Cənub Qaz Dəhlizi"...

## Elman Nəsirov: "Məlum oldu ki, Ermənistanın Aİ-yə töhfə verəcək heç nəyi yoxdur"

**Prezident İlham Əliyev "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında keçirilən Sammitində çıxışı zamanı bildirdi ki, "Cənub Qaz Dəhlizi" enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir: "İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələr əldə edib.**




Son 16 ildə ümumdaxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan "Cənub Qaz Dəhlizi"nin tikintisinin təşəbbüskarı olmuş və onu maliyyələşdirmişdir. "Cənub Qaz Dəhlizi" enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir".

Prezident İlham Əliyev bununla Azərbaycanın Avropa ilə əməkdaşlığa konkret töhfə verdiyini sübut etdi. Halbuki, Paşinyan sözügedən tədbirdə etdiyi çıxışında Ermənistanın Avropa ilə əməkdaşlığına töhfə sayıla biləcək heç nə deyə bilmədi.Yalandan atmaca atdı ki, biz "Şərq Tərəfdaşlığı"nda əməkdaşlığı təşviq etməliyik. Ancaq bunun üçün əməli olaraq nə etdiyini deyə bilmədi. Çünki sözügedən məsələ ilə bağlı nəsə etməyib axı. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili, politoloq Elman Nəsirov bir sıra məqamlara toxundu: "Prezident İlham Əliyevin çıxışında Azərbaycanın Avropa üçün yeni alternativ enerji mənbəyi olduğu fikri bir daha təsdiqini tapdı. Cənab Prezident qeyd etdi ki, "Cənub Qaz Dəhlizi", ilk növbədə, enerji təhlükəsizliyi, azad rəqabət layihəsidir. Azərbaycan bu layihə ilə Avropa İttifaqının enerji təhlükəsizliyinə doğrudan da çox böyük töhfə verir. Nəzərə alsaq ki, Aİ ölkələrinin ildə 500 milyard kubmetr qaza ehtiyacı var, onun təxminən 150 milyard kubmetri Rusiya hesabına təmin edilir. Digər hissəsi başqa ölkələrdən idxal olunur. Azərbaycan bu sahədə yeni ölkədir və biz gələn ildən başlayaraq Türkiyəyə 10 milyard, Aİ ölkələrinə isə 6 milyard kubmetr qaz ixrac edəcəyik. Bu da həmin ölkələr üçün olduqca əhəmiyyətlidir. Gələcəkdə qaz ixracının 37 milyard kubmetrə çatacağı proqnozlaşdırılır. Həqiqətən də cənab Prezidentin çıxışı göstərdi ki, Azərbaycan-Avropa İttifaqı münasibətləri strateji xarakterlidir. Azərbaycan bu qurumun "Şərq Tərəfdaşlığı" Proqramının üzvü olaraq, Aİ-nin enerji təhlükəsizliyinə ciddi töhfələr verir. Gələcəkdə bu töhfələr daha da genişlənəcək. Ancaq Nikol Paşinyan isə Aİ ilə əlaqələrdən danışarkən məlum oldu ki, onlar bu məsələdə sadəcə parazitdilər. Yəni Ermənistan ancaq alır və sorur.

*"Prezidentin çıxışında Azərbaycanın Avropa üçün yeni alternativ enerji mənbəyi olduğu fikri bir daha təsdiqini tapdı"*

**Necə ki, parazit qanı soran kimi. Ermənistanın Aİ-yə töhfə verəcək heç nəyi yoxdur. Aİ Ermənistanın timsalında ancaq parazit dövləti görür. Son tədbir bunu bir daha sübut etdi. Azərbaycan isə Aİ üçün ən etibarlı tərəfdaşdır və çox böyük iqtisadi potensiala malikdir. Bu nöqteyi-nəzərdən Azərbaycan Aİ üçün çox mühüm tərəfdaş hesab olunur. Ancaq Ermənistan haqqında bunu demək mümkün deyil. Paşinyanın fikirləri bunu bir daha ortaya qoydu".**

*Vidadi ORDAHALLI*

# Paşinyanın Qarabağ danışıqlarının mahiyyətini və formatını məhv etmək səyləri iflasda - Məsələ "Şərq Tərəfdaşlığı" Zirvəsində aktuallaşdırıldı...

**"Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın Baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil". Bunu Prezident İlham Əliyev "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında keçirilən Sammitində çıxışı zamanı deyib.**




## *Mübariz Əhmədoğlu: "Paşinyan çox çalışdı ki, Qarabağdakı separatçı qurum danışıqlarda tərəf olsun, amma bu alınmadı"*

Ölkə başçısının fikrincə, Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir: "Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlarda qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın Baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

Nikol Paşinyan Ermənistanın Baş naziri olandan sonra Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqların formatını və mahiyyətini məhv etməyə çalışır. Ancaq onun bununla bağlı səyləri fiaskoya uğrayır. Maraqlıdır, ötən iki ildə bu istiqamətdə Paşinyanın uğursuzluqları hansılardır?

Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu sözügedən məsələ ilə bağlı Paşinyanın bir sıra uğursuzluqlarını sadaladı: "Əvvəla Paşinyanın bütün siyasəti, o cümlədən, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində davranışı buz üstündə inəyin hərəkətlərinə bənzəyir. Təsəvvür edin ki, inək buz üstünə çıxıb xokkey oynamaq istəyir. Onun verdiyi bəyanatlar, açıqlamalar və bir-birinə zidd mövqelər bunun nəticəsidir. O, nə dediyinin mahiyyətini çox vaxt anlaya bilmir. Paşinyan Baş nazir olandan sonra çox çalışdı ki, Qarabağdakı separatçı qurum danışıqlarda tərəf olsun, amma bu alınmadı. Azərbaycan və ATƏT-in Minsk Qrupunun həmsədrləri onun bu təklifini qəbul etmədilər. Paşinyan bu xüsusda bir neçə dəfə dedi ki, o, danışıqlarda Qarabağ ermənilərini təmsil etmək səlahiyyətinə malik deyil. Guya ona belə bir səlahiyyət verilməyib. Bir dəfə bəyan etdi ki, münaqişə 3 xalqın - "Artsax", Azərbaycan və Ermənistan xalqlarının iştirakı ilə həll edilməlidir. Bu təklif də uğursuzluğa düçar oldu. Onda bir müddət sonra bəyan etdi ki, "Artsax" yoxdur, oradakı ermənilər gəlib Ermənistanla birləşməlidirlər. Separatçı qurumun "prezidenti" Araik Arutunyan da dedi ki, "Artsax" xalqı yoxdur, biz eyni xalqın nümayəndələriyik və gedib Ermənistana birləşməliyik.

*"...sərsəm siyasət yeridir və bu da onun əleyhinə işləyir"*

**Bu il yanvarın 16-da Paşinyan özü həmsədrlərə təqdim etdiyi variantı açıqladı. Bəlli oldu ki, ətraf 7 rayondan Ermənistan hərbi birləşmələri, ümumiyyətlə, çıxmalıdır. Daha sonra Paşinyan tamamilə başqa fikirlər səsləndirdi. Ona görə də Paşinyan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı sərsəm siyasət yeridir və bu da onun əleyhinə işləyir".**

***Vidadi ORDAHALLI***

# BMT-də Ermənistanın təcavüz siyasətinə birmənalı zərbə - rəsmi Qarabağ sənədi yayıldı...

**Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı qərargahında Azərbaycanın ərazilərini işğal edən təcavüzkar Ermənistanın beynəlxalq hüquqi öhdəlikləri barədə geniş və əhatəli məruzə dərc edilib.**



## *Məhəmməd Əsədullazadə: "...hərbi vasitələrə əl atmağa hüquqi zəmin yaradır"*

Əsas müəllifi professor, kral vəkili Malkolm Şou (Böyük Britaniya) olan bu məruzə bir neçə müddəadan ibarətdir.

Məruzənin əsas müddəaları aşağıdakılardır:

Ermənistanın nizami silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionunun və ona bitişik yeddi rayonun işğal olunmasında bilavasitə iştirak ediblər.

Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində oyuncaq rejim qurub və onun mövcudluğunu müxtəlif üsullarla, o cümlədən, həmin ərazilərdə hərbi iştirakını saxlamaq yolu ilə dəstəkləməkdə davam edir. Ermənistan oyuncaq rejim pərdəsi arxasında özünün təcavüzkar rolunu gizlətməyə çalışaraq, beynəlxalq hüququn bu pozuntularına görə məsuliyyəti öz üzərindən götürə bilməz.

Beynəlxalq hüquq güc tətbiq edilməklə ərazilər əldə olunmasını qadağan edir. Buna görə də Ermənistan və ya onun oyuncaq rejimi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində görülən hər hansı tədbir bu ərazilərin əvvəlki hüquqi statusunu dəyişdirə bilməz və beləliklə həmin ərazilər beynəlxalq hüquqa görə Azərbaycan əraziləri olaraq qalır.

Məruzədə təcavüzkar siyasətlə bağlı digər məqamlar da yer alıb. Ermənistanın işğalçı siyasətini ifşa edən məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi statusu ilə nəşr edilib və yayılıb. Bundan bir neçə gün əvvəl Avropa Parlamentinin Qarabağla bağlı məlum qərarı, indi də bu məruzə. Dalbadal sözügedən açıqlamalar diplomatik baxımdan Ermənistanın işğalçılıq siyasətinə vurulan zərbələrdir.

Maraqlıdır, bəs ekspertlər sözügedən sənədin əhəmiyyətini necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı BMT-nin məlum sənədi yayması ölkəmizin uğurudur: "Artıq Ermənistanın işğalçı ölkə kimi təsbit olunması beynəlxalq təşkilatların siyasətinin əsas məğzidir. Azərbaycanın apardığı iş məhz bunun bariz sübutudur. Hesab edirəm ki, Qarabağ münaqişəsinin nizamlanması istiqamətində bu sənədlər Azərbaycanın siyasi mövqeyini gücləndirməklə yanaşı, hərbi vasitələrə əl atmağa hüquqi zəmin yaradır. Ermənistanda bu sənədləri ölkənin xarici siyasətinin iflası kimi xarakterizə edirlər. Məhz Azərbaycan əvvəlki illərdən fərqli olaraq, Ermənistanı beynəlxalq təşkilatlarda işğalçı ölkə kimi qəbul etdirə bilir. Çünki bu reallıqdır və işğal faktoru ortadadır. Bu mühüm sənədlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməklə, bir növ, işğalçını ifşa edir. Fikrimcə, Azərbaycanın bu uğurlu siyasəti Ermənistanı iqnor hala salacaq. Bununla belə, onlarda məğlubiyyət sindromunu gücləndirəcək. Ard-arda məğlubiyyət Ermənistan üçün pis nəticə verəcək. Azərbaycan bu uğurları mütləq Qarabağda əldə edəcək. Onsuz da sözügedən proseslər buna hesablanıb".

*"Ermənistanda bu sənədləri ölkənin xarici siyasətinin iflası kimi xarakterizə edirlər"*

***Vidadi ORDAHALLI***

# Paşinyan irqçiliyin nə olduğunu bilmədiyini göstərdi - Avropa Məhkəməsinin qətnaməsi necə təhrif edildi...

***Akif Nağı:*** *"Paşinyanın söylədikləri həqiqət deyil, o, Avropa İnsan Hüquqları Məhkəməsinin mövcud qərarını bilərəkdən təhrif etməklə..."*

**Məlum olduğu kimi, iyunun 18-də "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında Sammitində çıxış edən Paşinyan daha bir yalana imza atıb. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək, bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia edib.**

Məlum olduğu kimi, iyunun 18-də "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında Sammitində çıxış edən Paşinyan daha bir yalana imza atıb. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək, bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia edib.

O, həmçinin, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun öz ölkəsində qəhrəman kimi qəbul olunmasından narazılığını bildirib. Ancaq Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdıran Paşinyan unudur ki, beynəlxalq səviyyəli məhkəmənin qərarını təhrif etmək yolverilməzdir və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında da Azərbaycana qarşı irqçiliklə bağlı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Qərarda baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi.

Bildiyimiz kimi, "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında Sammitində iştirak edən Prezident İlham Əliyev çıxışında Paşiyanı ifşa edib: "Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın Baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar".

Prezident İlham Əliyev, həmçinin, Karapetyan soyadlı cinayətkarın 2001-ci ildə Ermənistan Prezidenti tərəfindən əfv edildiyi məsələsinə də toxunub: "Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan Prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim. Burada çıxışımı yekunlaşdırıram".

Ölkə başçımızın Paşinyanın yalanını üzünə çırpması erməni Baş nazirə böyük bir dərs olmalıdır.



*"Bilirik ki, sözügedən məhkəmənin Azərbaycana qarşı heç bir iradı, ittihamı yoxdur"*

Paşinyanın Avropa İnsan Hüquqları Məhkəməsinin qərarını təhrif etməsinə münasibət bildirən Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyan öz ənənəvi xislətinə sadiq qalaraq, dünya ictimaiyyətini çaşdırmağa çalışıb. Sözügedən qərarda Azərbaycana qarşı irqçiliklə bağlı hər hansı bir iradın bildirilmədiyini vurğulayan A.Nağı hesab edir ki, tarixən Azərbaycanda irqçiliklə bağlı heç bir problem olmayıb, əksinə, Ermənistan irqçi ölkə kimi özünü göstərib və bunun nəticəsidir ki, bu gün bu ölkədə ermənilərdən, bir də erməniləşdirilmiş yezidi kürdlərdən başqa xalq yoxdur. "Bütün ermənilər kimi, Paşinyanın da fərqləndirici xüsusiyyətlərindən biri və birincisi yalan danışmaqdır. O utanmadan, qızarmadan, heç bir məsuliyyət daşımadan istədiyi beynəlxalq təşkilatın tədbirində istənilən beynəlxalq qurumun çıxardığı qərarı təhrif edə, saxtalaşdıra bilir. Birinci dəfə deyil ki, Paşinyan hansısa qərarı saxtalaşdırır, təhrif edir, bu onun erməni xislətindən, mahiyyətindən irəli gələn haldır. Ermənilər son yüz ildə ancaq bu yalan, saxtakarlıq, təhrif "model"indən istifadə edirlər, yalan danışmaqla məşğuldurlar. Paşinyan özü hakimiyyətə yalan, saxtakarlıq üzərində, saxta "şou"lar göstərərək, yalan vədlər verərək gəlib. Onları da yerinə yetirə bilmədiyi üçün bu cür iftiralar söyləyir. Bir müddət əvvəl Paşinyan Avropa Şurasının toplantısında utanmadan, qızarmadan tribunadan bəyan etdi ki, guya ermənilər Azərbaycanın müxtəlif rayonlarından, o cümlədən də Bakıdan çıxarkən burada "qırılıb, məhv edilib, yüzlərlə adam öldürülüb, işgəncə verilib". Bu böyük yalanın ardınca da Paşinyan daha bir ağ yalan danışdı. Guya azərbaycanlılar Ermənistandan deportasiya edilərkən bir nəfərin belə burnu qanamayıb, çox "mədəni şəkildə" Ermənistan hökuməti onların çıxmasına şərait yaradıb. Əlbəttə ki, bu həqiqət deyil və Paşinyanın yalanlarından, faktları təhrif etməsindən biridir. O tamam ağ yalan danışır. Rusiyanın "Memorial" təşkilatı var və dünya tərəfindən tanınan, rəyi qəbul edilən bir qurumdur. Avropanın bir çox qurumu var ki, həmin dövrdə azərbaycanlılar Ermənistandan deportasiya edilərkən statistika tərtib edib. Həmin statistikada 216 nəfər azərbaycanlının ermənilər tərəfindən xüsusi qəddarlıqla qətlə yetirildiyini etiraf ediblər. Bu fakt artıq beynəlxalq qurumların rəsmi sənədlərində əksini tapıb. Ortada bu cür faktlar ola-ola, Paşinyan yenə də utanmadan yalan danışır, həqiqəti təhrif edir. Hesab edirəm ki, Paşinyan "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında Sammitindən sui-istifadə edərək Avropa İnsan Hüquqları Məhkəməsinin Ramil Səfərovla bağlı qərarını təhrif və guya Azərbaycana qarşı "irqçilik"lə bağlı "ittiham" irəli sürüldüyünü iddia edib. Biz Paşinyanın bütün səviyyədə cavabını verməli və əlimizdə olan bütün ifşaedici sənədləri yenidən beynəlxalq qurumlara təqdim etməliyik. Paşinyanın Avropa İnsan Hüquqları Məhkəməsinin qərarını bu şəkildə saxtalaşdırması, təhrif etməsi yolverilməzdir və bununla bağlı həmin təşkilat özü də reaksiya verməlidir. Bilirik ki, sözügedən məhkəmənin Azərbaycana qarşı heç bir iradı, ittihamı yoxdur. Ermənilərin uzunmüddətli israrından, müraciətindən sonra məhkəmə Ramil Səfərov məsələsinə reaksiya verib və bunun fərdi zəmində bir hadisə olduğunu qeyd edib. Orada Ramil Səfərovun erməni təxribatçısını qətlə yetirməsindən guya onun qohumları, yaxınları zərər çəkib, Avropa İnsan Hüquqları Məhkəməsi də onlara Azərbaycan tərəfindən maddi yardımın verilməsi ilə bağlı qərar çıxarıb. Bizim pulla o məbləğ də təxminən 31 min manat edir. Bununla da bağlı Azərbaycan Xarici İşlər Nazirliyi dərhal cavab verdi ki, Avropa İnsan Hüquqları Məhkəməsinin çıxardığı bu qərar heç bir fakta söykənməyən bir qərardır, bu qərardan Azərbaycan şikayət edəcək, bu qərar yerinə yetirilməyəcək. Avropa İnsan Hüquqları Məhkəməsinin çıxardığı bu qərarın da heç bir əsası yoxdur. Ona görə də ermənilər çox istəyirlər ki, Azərbaycana qarşı məhkəmələr qurulsun, ölkəmiz "irqçilik", "etnik təmizləmə", guya ermənilərə qarşı hansısa məsələlərdə ittiham edilsin. Lakin əllərində heç bir fakt olmadığı üçün, heç bir beynəlxalq məhkəməyə də müraciət edə bilmirlər".

A.Nağı qeyd etdi ki, əslində, bizim əlimizdə erməniləri irqçilikdə, etnik təmizləmədə ifşa etmək üçün kifayət qədər fakt, sənəd, əsas var. Azərbaycanın bu faktlar əsasında beynəlxalq məhkəmələrə müraciət etməli olduğunu deyən A.Nağının sözlərinə görə, qoy beynəlxalq aləm ermənilərin necə cinayətlər törətdiyini, etnik təmizləmə, irqçilik kimi qəbuledilməz siyasət yürütdüklərini görsünlər, bilsinlər.

"Bir faktı deyim. Dünən bir məlumat yayıldı ki, Böyük Britaniyadan olan bir professor, kral vəkili, beynəlxalq hüququ yaxşı bilən tanınmış hüquqşünas Malkolm Şounun rəhbərliyilə hazırlanan məruzə BMT-nin Baş Qərargahında BMT-nin sənədi kimi nəşr edilərək paylandı. Həmin sənəddə bizim etməli olduğumuz işi beynəlxalq hüquq mütəxəssisi, beynəlxalq cameənin nümayəndəsi görüb və o məruzəni hazırlayaraq BMT-yə təqdim edib. O, sənəddə açıq şəkildə göstərir ki, Ermənistan Azərbaycana qarşı təcavüz aktı törədib, Azərbaycan torpaqlarını işğal edib, Dağlıq Qarabağda qondarma, oyuncaq bir rejim yaradıb, öz işğalçılıq, təcavüzkar siyasətini bu oyuncaq rejimin arxasında gizlətməyə çalışır. Sənədin sonunda da bildirir ki, insanlığa qarşı törətdiyi cinayətlərə, soyqırımlara görə onu törədən şəxslər fərdi qaydada Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb oluna bilər. Biz bunu etməmişik. Yəni artıq bunu bizə beynəlxalq hüquq üzrə xarici mütəxəssislər təklif edirlər. Həmin sənəddə törədilən cinayətlərə görə Ermənistanın dövlət kimi məsuliyyətindən danışılır, eyni zamanda da o cinayətləri törədən ayrı-ayrı şəxslərlə bağlı Azərbaycanın milli strukturları yüzlərlə qərar çıxarmalı idi. O vaxt Köçəryan, Sarkisyan, Samvel Babayan o cinayətlərdə iştirak ediblər. Azərbaycan bunlarla bağlı qərar çıxarıb beynəlxalq ictimaiyyətə təqdim etməlidir. Bu sənəddə maraqlı bir məqam var ki, Azərbaycan özü də bunlar haqqında qərar çıxara bilər, eyni zamanda, Azərbaycanın müraciətilə hansısa bir üçüncü ölkənin məhkəməsi bu hərbi cinayətkarlarla, soyqırım törədənlərlə bağlı fərdi qərar çıxara bilər. Biz bu praktikadan istifadə etməliyik. Bütün beynəlxalq hüquq mexanizmlərindən istifadə edərək Azərbaycan Ermənistan dövlətini məhkəməyə verə bilər. Biz bu gün Avropa İnsan Hüquqları Məhkəməsinin vasitəsilə bu məsələni gündəmə gətirə bilərik, yaxud Azərbaycan dövlətinin təşəbbüsü ilə Haaqa Tribunalı kimi mexanizm yaradıla bilər. Yəni bu işləri görməliyik ki, ermənilər də, Paşinyan da bu cür tribunalardan istifadə edərək Azərbaycana qarşı qondarma ittihamlar irəli sürə bilməsinlər. Yenə də deyirəm ki, Paşinyanın söylədikləri həqiqət deyil, o, Avropa İnsan Hüquqları Məhkəməsinin mövcud qərarını bilərəkdən təhrif etməklə aləmi öz yalanlarına, saxtakarlığına inandırmağa cəhd göstərir. Bu gün ermənilər müxtəlif yollarla Ramil Səfərovla bağlı məsələni qaldırmaq istəyirlər, amma bütün instansiyalardan onlara haqlı olmadıqlarını deyirlər. Sonuncu qərara gəlincə, ermənilər Avropa İnsan Hüquqları Məhkəməsini o qədər bezdirdilər ki, o da belə qeyri-müəyyən bir qərar verdi. Ermənilər bundan istifadə etmək istəyirlər, amma nail ola bilməyəcəklər" - deyə A.Nağı qeyd etdi.

***İradə SARIYEVA***

# "Valday" klubu, Aşqabad sammiti, Davos Forumu - Paşinyanın Əliyevlə üz-üzə debatda 4-cü rüsvayçı məğlubiyyəti...

**Prezident İlham Əliyev artıq neçənci dəfədir ki, Ermənistanın baş naziri Nikol Paşinyana sözün əsl mənasında siyasi dərs verir. Lakin hər dəfəki biabırcı mənzərədən dərs çıxarmaq əvəzinə, erməni baş nazir yenidən öz ampluasına dönməyi məqbul sayır. Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı davranışı onun yaxın tarixi keçmişdən müvafiq nəticələr çıxarmadığını təsdiqləyir.**

O, öz sələfləri kimi daxili auditoriyaya ünvanlanmış populist, məsuliyyətsiz, ziddiyyətli və bir çox hallarda avantürist bəyanatlar verməkdə davam edir. Xüsusilə Nikol Paşinyanın işğal altındakı Azərbaycan ərazisində - Xankəndidə dar çevrədə səsləndirdiyi "Dağlıq Qarbağ Ermənistandır. Nöqtə" sərsəm fikri işğalçı ölkənin özündə belə qeyri-ciddi və populist mövqe kimi qarşılanmışdı. Azərbaycan xalqı isə görür ki, Prezident İlham Əliyev ən mühüm ümummilli problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində son dərəcə prinsipiallıq və qətiyyət göstərir. Sonuncu dəfə bu davranışı Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında nümayiş etdirdi. Münaqişənin tarixi, Ermənistanın işğalçılıq siyasətinin humanitar fəlakət törətməsi, beynəlxalq hüququn işləməməsi, BMT TŞ-nın müvafiq qətnamələrinin kağız səviyyəsinə enməsi, təcavüzkar dövlətin yeni rəhbərliynin populist və məsuliyyətsiz bəyanatlar səsləndirməsi kimi həqiqətləri lazımi məqamda və yerdə dünya ictimaiyyətinə çatdırdı. Çıxışının sonunda isə Paşinyanın dar çərçivədə söylədiyi və daxili auditoriyaya ünvanlanmış " Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" sayıqlamasına qarşı " Dağlıq Qarabağ Azərbaycandır və Nida işarəsi " hökmünü irəli sürdü. Prezidentin bu qətiyyətli mövqeyi Azərbaycanda böyük coşqu və ruh yüksəkliyi ilə qarşılandı. Paşinyanın ən qatı silahdaşları belə onu böyük diplomatik məğlubiyyətdə qınayır, Azərbaycan Prezidentinin böyük uğurunu etiraf edirlər.

Valday nokautundan sonra Azərbaycan Prezidenti Türkmənistanda - MDB-nin sammitində də N.Paşinyanı çıxılmaz vəziyyətə saldı. MDB-də faşizm üzərində qələbənin 75 illiyinin keçirilməsinə hazırlıq məsələsi müzakirə edilərkən Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın keçmiş rəhbərliyinin faşist Njdeyə abidə qoyduğunu, indiki rəhbərliyin isə bu abidəni demontaj etmədiyini və faşistləri qəhrəmanlaşdırmaqda davam etdiyini sammit iştirakçılarına və dünyaya elan etdi. Ermənistanın Baş naziri, təbii ki, faşizm üzərində qələbənin 75 illiyi mövzusunun müzakirəsi zamanı Prezident İlham Əliyevin bu ittihamına cavab verə bilməzdi. Sadəcə arqumenti yox idi!

Azərbaycan Prezidentinin həmin bəyanatının bir neçə hədəfi var idi. Birincisi, MDB-nin sammitini təkcə region ölkələri deyil, dünya diqqət mərkəzində saxlayır və orada verilmiş bəyanat daha geniş beynəlxalq miqyasda yayılır. Odur ki, yer və zaman olaraq bəyanat yerində və anında verilmiş bəyanatdır. İkincisi, Njdeyə abidə məsələsi Ermənistanı rus xalqı ilə birlikdə faşizmlə müharibədə böyük itkilər vermiş bütün xalqlarla üzüzə qoyur. Odur ki, Prezident İlham Əliyev bu ittihamı səsləndirərkən faşizmdən ən çox əziyyət çəkmiş ölkələrin prezidentləri - V.Putin və A.Lukaşenko ilə bir masanın arxasında olan N.Paşinyanın hansı vəziyyətə düşdüyünü görmək maraqlı olardı. Bununla da Ermənistan Valdaydan sonra ikinci, "Aşqabad şoku"nu yaşadı.

Valday və Aşqabad gedişləri göstərdi ki, Azərbaycan Prezidenti diplomatik gedişlərlə rəqibi çıxılmaz vəziyyətə salmaq üçün yeri və anı ustalıqla seçir və psixoloji üstünlüyü ələ almağı bacarır.

Tərəflər arasında Davos Ümumdünya İqtisadi Forumu formatında da görüş olub. Tədbirin təşkilatçıları Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşünü forumun 33 əsas hadisəsi sırasına daxil edib. Sözügedən formatda keçirilən görüşdə də İlham Əliyev qətiyyətli və prinsipial mövqeyi ilə Paşinyana sözün əsl mənasında növbəti diplomatik dərs keçib.

Paşinyan növbəti və ən sarsıdıcı şoku isə Münhendə yaşayıb. Münhen Təhlükəsizlik Konfransının 56-cı toplantısının ən önəmli hadisəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair panel müzakirələr və Prezident İlham Əliyevin Ermənistanın hö-



kumət başçısına tarixi həqiqətlər və beynəlxalq hüquqla bağlı verdiyi dərs oldu. Həmin debatda əvvəlcə Prezident İlham Əliyevin Azərbaycanın və onun ayrılmaz bir parçası olan Dağlıq Qarabağın tarixi, münaqişənin yaranma səbəbləri və Ermənistanın baş nazirinin əsassız iddialarına diqqət çəkdi. Prezident İlham Əliyev tarixi müstəvidə çıxışına 1805-ci ildə Qarabağ xanı İbrahim xanla Rusiya imperiyasının generalı Sisianov arasında imzalanan sazişdən başladı. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığının müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçdiyini qeyd etdi. Yəni Prezident İlham Əliyev məsələni tarixi müstəvidən hansısa salnaməçilərin, yaxud maraqlı tərəflərin uydurduğu xronikadan deyil, beynəlxalq münasibətlərin subyekti olan və hazırda da qorunub saxlanan dövlətlərarası müqavilələrdən başladı. Prezident İlham Əliyevin Dağlıq Qarabağ, eləcə də Azərbaycanın digər tarixi əraziləri, ö cümlədən İrəvanla bağlı söylədikləri, həmçinin Ermənistanın bir dövlət olaraq formalaşdırılması ilə bağlı söylədikləri də mübahisə doğurması mümkün olmayan tarixi faktlara söykənirdi və bu faktlar sənədlər şəklində bu gün Rusiya və dünyanın ayrı-ayrı ölkələrində qorunub saxlanır.

Nikol Paşinyan hər hansı bir tarixi sənədlə təsdiq olunması mümkün olmayan, erməni salnaməçilərinin uydurduğu və yalnız ermənilərin inandığı söz yığınından ibarət tarixi dedi-qodularla Azərbaycan Prezidentinə cavab verməyə cəhd göstərdi. Paşinyanın "Böyük Tiqranın romalı hərbi lider Pompeylə danışıqlar aparması" barədə söylədikləri isə, təkcə onun savadsızlığını və səriştəsizliyini yox, həm də yalan üzərində qurulan erməni təbliğatının mahiyyətini ortaya qoydu.

Nikol Paşinyan hər dəfə Prezident İlham Əliyevin onu acınacaqlı duruma salan fikirlərinə cavab vermək istəyəndə öz vəziyyətini daha da pisləşdirdi. Bu Xocalı soyqırımı, Şaumyan rayonu ilə bağlı fikir mübadiləsində də özünü qabarıq şəkildə göstərdi. Həmin debatda, sadəcə Ermənistanın baş naziri deyil, bütövlükdə erməni təbliğat maşını dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə məğlub oldu.

Paşinyan növbəti dərsini iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində aldı. Paşinyan çıxışında daha bir yalana imza atdı. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun ölkəsində qəhrəman kimi qəbul olunmasından narazılığını bildirdi. Amma Paşinyan bilməlidir ki, beynəlxalq səviyyəli məhkəmənin qərarını təhrif etmək yolverilməzdir və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında da Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Qərarda baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittihamı edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi.

Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş vermişdi. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində əsas məqsədinin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunur. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın o vaxtkı baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilir, mənzil və işlə təmin olunur. Bu bir daha onu göstərir ki, qanlı terror törədən insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir.

**Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi. Bu isə bütün hallarda istənilən bir hökumət başçısı üçün arzuolunan vəziyyət deyil.**

*Məhəmmədəli QƏRİBLİ*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan beynəlxalq miqyasda Ermənistanı diz çökdürür - müxtəlif təşkilatların davamlı olaraq erməni təcavüzünü ifşa edən sənədləri...

**Dünya miqyasında aparıcı sayılan beynəlxalq təşkilatlarda Azərbaycan Ermənistanın işğalçılıq siyasətini ifşa etməkdə, bu xüsusda yeni çoxsaylı sənəd və qətnamələrin qəbuluna nail olmaqdadır. Təbii ki, bütün bunlar nəticə etibarı ilə Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ətrafında mövqeyini daha zəif hala gətirir, ona qarşı dünya ictimaiyyətinin yanaşmasında dəyişikliklərə rəvac verir.**

Məsələn, elə bu günlərdə Avropa Parlamentinin üzvlərinin Ermənistanı Azərbaycanın işğal edilmiş əraziləri ilə birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı yaydıqları bəyanat işğalçı üçün şok effekti yaratdı.

Həmin bəyanatda deyilir ki, işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarından keçərək Ermənistandakı Qafan rayonunu işğal altında olan Dağlıq Qarabağın Hadrut rayonu ilə birləşdirəcək bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan alınıb və beynəlxalq hüququ pozub. İtaliyanın "Notizi-egeopolitiche" və "Eurasianews" analitik xəbər portallarında isə yenidən bu məsələyə toxunulub. Burada qeyd olunur ki, 1992-ci ildən etibarən Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və ətraf ərazilər bütün beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın bir hissəsi kimi tanınır:"Belə vəziyyətdə Avropa Parlamentinin üzvlərinin bəyanatı göstərir ki, Avropa Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həllini süni şəkildə uzatmaq və status-kvonu qorumaq cəhdlərinin zərərli təsirlərini başa düşür və Ermənistan rəhbərliyini təxribatçı ifadələrdən çəkinməyə, Azərbaycanla konstruktiv dialoqa başlamağa çağırır. Bunlar göstərir ki, beynəlxalq ictimaiyyət artıq təcavüzə biganə qalmır, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına daha adekvat cavab verir". Təsadüfi deyil ki, Avropa Parlamentinin nümayəndələrinin bəyanatı Ermənistanda böyük narazılığa səbəb olub. Ermənistanın ombudsmanı Larisa Alaverdyan bu sənədi Ermənistan parlament diplomatiyasının tam iflası, analitik Karen Bekaryan isə bu hadisəni Ermənistanın xarici siyasətinin Avropa və parlament diplomatiyasına münasibətdə rüsvayçı uğursuzluğu kimi qələmə verir. Amma Ermənistanın Avropa miqyasında aldığı diplomatik zərbələr təkcə bunlarla məhdudlaşmır.

Avropa Xalq Partiyasının prezidenti Donald Tuskun da məsələyə münasibəti olduqca maraqlıdır. Belə ki, o, bütün "Şərq Tərəfdaşlığı" məkanında davam edən regional münaqişələrin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyü əsasında nizamlanmasına çağırıb. Tusk yaydığı bəyanatında vurğulayıb ki, onun partiyası Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramına üzv dövlətlərin tanınmış sərhədləri çərçivəsində onların ərazi bütövlüyünü dəstəkləyir. Tuskun bəyanatında işğalçılar və onların separatçı oyuncaqları tərəfindən spekulyasiya edilən "təyini-müqəddərat hüququ"nun adı belə çəkilmir. Bəyanatda Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ATƏT-in Minsk Qrupunun səylərinin dəstəklənməsi bildirilir. İki digər prinsiplə yanaşı, məhz 1975-ci ilin Helsinki Yekun Aktı kontekstində təyini-müqəddərat hüququnun daxil olduğu ATƏT-in Minsk Qrupunun baza prinsiplərinə istinad edilməsi faktı o deməkdir ki, Avropa Parlamentinin ən iri partiyalarından biri "Şərq Tərəfdaşlığı" proqramının iştirakçı dövlətlərindən hər hansı birinin ərazi bütövlüyünü pozan hansısa xarici təyini-müqəddəratı rədd edir. Bu mövqeni vurğulamaq və spekulyasiyaya bəhanə yaratmamaqdan ötrü Tusk biləəkdən öz bəyanatında "təyini-müqəddərat hüququ"nu xatırlatmayıb. Bunların ardınca Avropa miqyasında Ermənistana növbəti zərbə Avropa İttifaqına üzv dövlətlərin və "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında baş tutan sammitində çıxışı zamanı Prezident İlham Əliyev tərəfindən gəlib. Burada dövlət başçısı bir daha Ermənistanın işğalçı siyasətinin mahiyyətini diqqət mərkəzinə gətirb: "Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır". Avropa Parlamentinin üzvlərinin bəyanatı, ardınca Donald Tuskun mövqeyi və bunlardan sonra mühüm bir beynəlxalq tədbirdə Prezident İlham Əliyevin dedikləri Avropada Ermənistana vurulan yeni sərt diplomatik zərbələr sayılır. Beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana göstərilən bu əhəmiyyətli dəstək Ermənistanın işğal siyasətinin iflası da sayılır.

Ermənistana bu xüsusda daha bir sərt zərbə isə BMT səviyyəsində vuruldu. Belə ki, Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı qərargahında Azərbaycan ərazilərini işğal edən təcavüzkar Ermənistanın beynəlxalq hüquqi öhdəlikləri barədə geniş və əhatəli məruzə dərc edilib. Əsas müəllifi Böyük Britaniyadan olan professor, kral vəkili Malkolm Şou olan bu məruzənin əsas müddəaları Ermənistanın işğalçı mahiyyətini açıq şəkildə meydana qoyur. Burada qeyd edilir ki, Ermənistanın nizami silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionunun və ona bitişik yeddi rayonun işğal olunmasında bilavasitə iştirak edib:"Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində oyuncaq rejim qurub və onun mövcudluğunu müxtəlif üsullarla, o cümlədən həmin ərazilərdə hərbi iştirakını saxlamaq yolu ilə dəstəkləməkdə davam edir. Ermənistan oyuncaq rejim pərdəsi arxasında özünün təcavüzkar rolunu gizlətməyə çalışaraq beynəlxalq hüququn bu pozuntularına görə məsuliyyəti öz üzərindən götürə bilməz. Beynəlxalq hüquq güc tətbiq edilməklə ərazilər əldə olunmasını qadağan edir. Buna görə də Ermənistan və ya onun oyuncaq rejimi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində görülən hər hansı tədbir bu ərazilərin əvvəlki hüquqi statusunu dəyişdirə bilməz və beləliklə həmin ərazilər beynəlxalq hüquqa görə Azərbaycan əraziləri olaraq qalır. Ermənistan onun tərəfindən beynəlxalq humanitar hüququn və beynəlxalq insan haqları hüququnun pozulmasına görə dövlət məsuliyyəti daşıyır. Bu cür pozuntular sırasına Azərbaycanın işğal olunmuş ərazilərinə şamil edilən qanunlarını və hüquq sistemini dəyişdirmək cəhdləri, əmlak hüquqlarına qəsd edilməsi, mədəni və tarixi əhəmiyyətli obyektlərin dağıdılması və ya məhv edilməsi, işğal olunmuş ərazilərdə erməni məskənlərinin yaradılması, himayə edilən şəxslərlə lazımınca davranılmaması və onların zorakılıqla yox edilməsi aiddir.

Ermənistan həm törətdiyi pozuntulara son qoymalı, həm də bu pozuntularla bağlı ziyanı ödəməlidir. Beynəlxalq humanitar hüquqa və beynəlxalq insan haqları hüququna görə bu cür öhdəliklərə Ermənistana münasibətdə qüvvədə olan mexanizmlər, məsələn, BMT-nin insan haqları üzrə müqavilə orqanları və müvafiq beynəlxalq məhkəmə təsisatları tərəfindən nəzarət edilə və həyata keçirilə bilər.

Təcavüzün gedişində Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlərə, insanlıq əleyhinə cinayətlərə və soyqırımına gəldikdə isə, buna görə fərdi məsuliyyət milli məhkəmələr, o cümlədən cəlb edilmiş müxtəlif dövlətlərin və ya üçüncü dövlətlərin məhkəmələri vasitəsilə həyata keçirilə bilər, Ermənistanın bir dövlət kimi məsuliyyəti isə müvafiq dövlətlərarası mexanizmlər vasitəsilə təmin edilə bilər". Onu da qeyd edək ki, Ermənistanın işğalçı siyasətini ifşa edən məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi statusu ilə nəşr edilib və yayılıb. Bütün bunlar beynəlxalq təşkilatlar miqyasında Azərbaycan diplomatiyasının Ermənistanı diz çökdürməkdə olduğunu göstərir. Bunlar, eyni zamanda, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün, hərbi güc də daxil olmaqla, bütün vasitələrdən istifadə etmək hüququnun reallaşması baxımından da zəruri əhəmiyyət kəsb edir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistanın terrorçu mahiyyətinin ifşa edilməsi, faşizm ənənələrinin bu ölkədə yaşadılmasına dair Azərbaycan tərəfindən son dövrlərdə ortaya qoyulan çoxsaylı faktlara indi dünya ictimaiyyəti tərəfindən də xüsusi diqqət yetirilir.**

# Azərbaycanın erməni faşizmi barədə dediklərini düşmən ölkədə də qəbul etməyə başlayırlar... "Hakimiyyət faşizmə xas qaydada hərəkət edir" fikri gündəmdə...

Dünya mətbuatında erməni faşizminə dair yer alan çoxsaylı materiallar, müxtəlif siyasətçilər tərəfindən verilən açıqlamalar da qeyd edilənlərin real təsdiqi sayıla bilər. İndi iş o yerə çatıb ki, hətta Ermənistanın özündə belə faşizmin mövcudluğuna dair etiraflar artır.

Məsələn, "Çiçəklənən Ermənistan" fraksiyasının katibi Arman Abovyan qeyd edir ki, Nikol Paşinyanın fəaliyyəti bugünkü Ermənistanda klassik faşist sistemlərinin formalaşdığını birbaşa formada təsdiqləyir:"Baş nazir iddia edir ki, 2018-ci ildə çox yüksək etimad səsi almaqla hakimiyyət üçün siyasi təqiblər həyata keçirməkdə məna görmür. Çox zəif tezisdir. "Çiçəklənən Ermənistan" partiyası və Qaqik Tsarukyana qarşı olan hadisələr göstərir ki, bizə qarşı siyasi repressiyalar həyata keçirilməsinin əsas səbəbi hakimiyyətin "daxili" qorxularıdır, başqa heç bir səbəb yoxdur. Hakimiyyət faşizmə xas qaydada hərəkət edir, insanları siyasi terror və repressiyalarla qorxudur".



Qeyd edilən bu etiraflar faşizm və terror barədə Azərbaycanın dediklərinin Ermənistanda da təsdiqidir. Yeri gəlmişkən qeyd edək ki, erməni terroru ilə bağlı daha bir ifşaedici fakt Avropa İttifaqına üzv dövlətlərin və "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında baş tutan sammitində Prezident İlham Əliyev tərəfindən yenidən diqqət mərkəzinə gətirildi. Burada Ermənistanın baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevin çıxışından sonra iddia etdi ki, guya Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçı siyasət həyata keçirməsinə dair qərar verib. Sonra isə Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun burada əfv edilməsindən narazılıq edib. Amma cavabı da dərhal elə oradaca Prezident İlham Əliyev tərəfindən verilib:"Birincisi, bu hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə, Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim".

Burada bir məqamı qeyd edək ki, Paşinyan Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək, bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi. Halbuki, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında Paşinyanın iddia etdiyi xüsusda Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi. Digər tərəfdən, Paşinyan aldığı cavabla erməni terrorunu bir daha gündəmə gətirdi. Belə ki, yuxarıda qeyd olunduğu kimi, Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş verib. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində əsas məqsədinin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunur. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilir, mənzil və işlə təmin olunur. Bu bir daha onu göstərir ki, qanlı terror törədən insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir. Bu məqamın beynəlxalq səviyyəli tədbirdə Azərbaycan prezidenti tərəfindən yenidən gündəmə gətirilməsi Ermənistanı növbəti dəfə mat vəziyyətinə saldı.

Digər tərəfdən, Ermənistanda baş verənlər burada terrorçuluq və faşizmin tüğyan etməsinə dair Azərbaycanın dediklərinin real təsdiqidir. Məsələn, bu yaxınlarda, Paşinyan müxalif partiyaları virus daşıyan basillə müqayisə etdi. Xatırladaq ki, bir vaxtlar Hitler də rəqiblərini virus daşıyıcı basillərlə müqayisə etmişdi. Əvvəlcə yəhudiləri, sonra kommunistləri və sosial-demokratları, həmçinin digər əleyhdarlarını basil adlandırdı. Nasist Hitlerin totalitar düşüncəsi özündən başqa heç bir siyasi subyekti tanımayan bugünkü Paşinyanın düşüncəsinə çox bənzəyir. İstənilən əleyhdarlarının hər birini MTX və cinayət işlərinin açılması ilə təhdid edir.

**Bu göstərir ki, Ermənistanda hakimiyyətin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır. Digər tərəfdən, faşizmin Ermənistanda əsas yaradıcılarından olar Njde, məlum olduğu kimi, erməni xalqının ali irqə mənsub olması ideyasını irəli sürürdü və bu ideya nasizm ideyaları ilə uzlaşır. Onun 1930-cu ildə hazırladığı "tsexakronizm" konsepsiyası irqçilik nəzəriyyəsindən çıxış edir. Oxşar ideologiya müasir Ermənistanda da kök atıb və bu, ərazi genişləndirmə siyasəti, türklərə, azərbaycanlılara qarşı fobiya, erməni xalqının ali irqə mənsub olması və 3 dənizin ortasında "Böyük Ermənistan" ideyalarının bir hissəsidir. Paşinyan bunlara sadiq qalmaqla Ermənistanda faşizmin təşəkkülünə yeni təkan verir.**

***Tahir TAĞIYEV***

# Paşinyan "Şərq Tərəfdaşlığı" ölkə başçılarının Zirvəsində "şou" göstərdi - tək kompyuter qarşısında maska ilə?

**Ermənistanın Baş naziri Nikol Paşinyan dünya qarşısında özünü biabır etməkdə davam edir. Savadsızlığı, bilgisizliyi, siyasi sahədə piyada olması bir yana, öz davranışlarında da ciddi xətalara yol verir və bununla da gülüş, lağ obyektinə çevirilir.**




***Azər Həsrət:** "Paşinyanın maska ilə təkbaşına kompyuter arxasında oturub bu şəkildə çıxış etməsi həm onun dilənçilik xislətindən, həm də..."*

Məlum olduğu kimi, iyunun 18-də "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında Sammitində Paşinyan da iştirak edib. Tək kompyuter qarşısında maska ilə oturması və bu şəkildə danışması onu gülüş hədəfinə çevirib. Bütün ölkələrin dövlət və hökumət başçıları videokonfrans formatında keçirilən Sammitdə maskasız danışdıqları halda, Paşinyan maska taxmaqla "şou" göstərdi. Virusun kompyuter vasitəsilə keçmədiyi məlum olduğu üçün, Paşinyanın maska ilə çıxış etməsinə nə ehtiyac vardı?

Siyasi şərhçi Azər Həsrət bizimlə söhbətində bildirdi ki, Paşinyan məqsədli şəkildə sözügedən videokonfransa maska ilə qatılıb və bu şəkildə çıxış edib. Bunun Paşinyanın növbəti sədəqə dilənmək "şou"su olduğunu deyən A.Həsrət hesab edir ki, o, bununla böyük dövlətlərdən maliyyə yardımı, ianə qoparmaq istəyir. Paşinyanın bununla özünü gülməli bir obrazda təqdim etdiyini deyən A.Həsrət hesab edir ki, o, guya öz aləmində bununla koronavirusdan əziyyət çəkən erməni xalqının vəziyyətini dünya ictimaiyyətinə çatdırmaq istəyib, əvəzində isə özünü gülüş, lağ obyektinə çevirib: "Ümumiyyətlə, "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Paşinyanın və onun timsalında dilənçi erməni xalqının gerçək sifəti üzə çıxdı. Paşinyan maska ilə kompyuter qarşısında əyləşərək ağzında maska çıxış etməklə öz aləmində az-yalavac, koronavirus pandemiyası cağında olan erməni xalqının vəziyyətini göstərmək istəyib. Yəni o, bununla "ermənilər koronavirusdan qırılır, ölür, xəstəlik artır, bizim də onları sağaltmağa maliyyə imkanlarımız yoxdur" demək istəyir və beynəlxalq ictimaiyyətdən yardım diləyir. Bu "şou" Paşinyanın növbəti dilənçilik, ianə ummaq marağından irəli gəlir. O göstərmək istəyir ki, yazıq və məzlum erməni xalqı aciz durumdadır, bizə yardım edin. Əlbəttə, onun maska ilə təkbaşına kompyuter arxasında oturub bu şəkildə çıxış etməsi həm onun dilənçilik xislətindən, həm də siyasi naşılığından, nadanlığından irəli gəlir. Guya ki, kompyuterdən ona virus keçə bilər(?). Onun bu davranışı bir erməni məkri, hiyləsi və dilənçiliyi kimi xarakterizə edilə bilər.

*"...özünü beynəlxalq aləmdə gülüş obyektinə çevirdi"*

**Paşinyan kompyuter qarşısında maska taxmaqla özünü beynəlxalq aləmdə gülüş obyektinə çevirdi" - deyə A.Həsrət qeyd etdi.**

***İradə SARIYEVA***

# Paşinyanın açıq diktatura siyasətinə Qərbin ikili standart sükutunu pozan yeganə səs - Avropa Xalq Partiyası...

**Ermənistanda həbslər və təqiblərin neçə vaxtdır davam etməsinə rəğmən, Qərbdən reaksiya gəlmirdi. Adətən, Qərb baş verənləri susqunluqla izləyir. Faktiki olaraq, ikili standartlardan çıxış edən Avropa təsisatları bütün bunları görməzdən gəlirlər.**

*"Hesab edirəm ki, Avropa təsisatları adekvat reaksiya bildirməyə məcbur olacaqlar"*

***Ramil Hüseynov:** "Baş nazirin heç bir sərhəd tanımaması və Tuskun buna görə tənqid mesajını səsləndirməsi sükutu pozdu"*

Hansı ki, Ermənistanda həbslər və təqiblər uzun müddətdir davam edir, lakin hər hansı bir reaksiya daxil olmur.

Baş nazir Nikol Paşinyan isə repressiv addımlarını belə izah edir ki, "Çiçəklənən Ermənistan" Partiyasının üzvlərinə və Qaqik Çarukyanın qohumlarına qarşı cinayət işləri 2018-ci ildə açılıb. O, çıxışı zamanı Çarukyanın partiyasının bağlanması ehtimalına da eyham vurub: "2017-ci ildə sistemli şəkildə rüşvət paylanması, saxtalaşdırmada iştirak edən partiyaların buraxılmasına dair qanun layihəsi hazırlanıb. Bu qanun layihəsini geri qaytarmaq və belə partiyaları qadağan etmək barədə düşünmək lazımdır".

Belə görünür ki, artıq Qərb də susqunluğu pozmaq üzrədir. Belə ki, Avropa İttifaqı Şurasının keçmiş sədri, Avropa Xalq Partiyasının rəhbəri Donald Tusk "Tvitter" səhifəsində Ermənistan hakimiyyətinin atdığı addımları sərt tənqid edib. O, Ermənistan hökumətini müxalifətə qarşı təzyiqlərdən çəkinməyə çağırıb: "Avropa Xalq Partiyası Ermənistanda demokratiyanın geriləməsinə dair çoxsaylı haldan narahatdır".

Tuskun bu açıqlaması Ermənistanda baş verənlərə Qərbdən daxil olan ilk reaksiyadır. Maraqlıdır, Qərbin Ermənistanda baş verənləri susqunluqla izləməsi fonunda Tuskun bunu kəskin pisləməsini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun fikrincə, Qərb uzun müddət Ermənistanda baş verənləri susqunluqla izləyə bilməz: "Aydın məsələdir ki, Qərb Ermənistana ikili standartlarla yanaşır. Çünki Paşinyanın hakimiyyətə gətirilməsi Qərbin layihəsi idi. O üzdən, Qərb



Ermənistanda baş verən repressiyaları görməzdən gəlir. İlk vaxtlar Paşinyana böyük ümid var idi. Elə düşünürdülər ki, o, ciddi inqilablar həyata keçirəcək. Nəticədə Ermənistanı əsaslı şəkildə dəyişəcək. Ancaq çox keçmədi ki, beynəlxalq qurumlar bunun əksini gördülər. İndiki məqamda Qərb ona görə tələsmir ki, alternativ siyasi qüvvələr formalaşmayıb. Qərb Rusiyanın təsiri altında olan "Qarabağ klanı"nın yenidən hakimiyyətə gəlməsini istəmir.

**Hesab edirlər ki, onlar da təzyiqə başlasalar, Paşinyanın devrilməsi qaçılmaz olacaq. Zatən, ölkədə siyasi vəziyyət gərgindir. Ancaq Paşinyanın heç bir sərhəd tanımaması və Tuskun buna görə tənqid mesajını səsləndirməsi sükutu pozdu. Hesab edirəm ki, Avropa Parlamenti, ATƏT, Avropa Şurası və digər təsisatlar adekvat reaksiya bildirməyə məcbur olacaqlar. Proseslər artıq o istiqamətdə inkişaf edir".**

***Vidadi ORDAHALLI***

# Ermənistan Türkiyə və Rusiya arasında sıxışmış durumda... İsveç mətbuatında İrəvanı şoka salan iddia...

**Rusiya və Türkiyənin geosiyasi müstəvidə bir-birinə daha çox yaxınlaşmaq niyyəti özünü getdikcə daha qabarıq şəkildə büruzə verir. Tərəflərin Suriya və Liviya kimi bölgələrdə mövqeyi bəzən ziddiyyət doğursa da, məsələlər qarşılıqlı anlaşma şəklində həllini tapır.**



Bunlar fonunda vaxtaşırı səslənən məqamlardan biri də tərəflərin Cənubi Qafqaz kimi mühüm bir geosiyasi məkanda daha sıx əməkdaşlığa start verə biləcəyidir. Hadisələrin belə mümkün ssenarisindən isə, həmişəki kimi, xüsusi narahatlıq duyan tərəflərdən biri Ermənistandır. Burada hesab edilir ki, Moskva və Ankaranın Qafqazda mümkün yaxınlaşması İrəvan üçün böyük zərbə olacaq. Xüsusən də İsveçin "Nordic Research Monitoring Network" qeyri-kommersiya təşkilatının "Nordic Monitor" portalı tərəfindən gündəmə gətirilən iddilardan sonra Ermənistanın narahatlığı daha da artıb. Sözügedən portal tərəfindən isə Türkiyənin Ermənistan və Yunanıstana hərbi müdaxilə planı hazırladığına dair iddialar irəli sürülüb. İddiaya görə, belə bir planın olması faktı 15 iyul dövlət çevrilişinə cəhd işi üzrə həyata keçirilən məhkəmə prosesinin materiallarında təsadüfən ortaya çıxıb.

Portalın iddiasında qeyd olunur ki, Ermənistana hərbi müdaxilə planı 2000-ci ilin 15 avqust, Yunanıstana hərbi müdaxilə planı isə 2014-cü ilin 13 iyun tarixinə aiddir:"Yunanıstana hərbi müdaxilə planının kod adı səlcuq əmiri Çaka bəyin şərəfinə "Çak-vur", Ermənistana hərbi müdaxilə planının kod adı isə 1920-ci illərdə Türkiyə Cümhuriyyətinin qurulması uğrunda müharibədə iştirak edən general Altay Fəxrəddinin şərəfinə "Altay" adlandırılır". Bu informasiyalar yenidən Ermənistanda dəhşətli narahatlığa səbəb olub. Türkiyənin Suriya və Liviyadakı hərbi əməliyyatlarına, son olaraq da İraqın şimalında PKK terrorçularına qarşı keçirilən "Pəncə-Qartal" əməliyyatına diqqət çəkən Ermənistan mediası məxfi qrifli "Altay" əməliyyatı haqqında iddianı tirajlayıb.

Erməni şərhçi Aram Amatuni yazır ki, Türkiyənin Ermənistana hərbi müdaxilə planı təəccüblü deyil: "Belə əməliyyat planları ehtiyat variant kimi daim türk ordusunun gündəmində olub. Son günlər Ermənistanın daxili siyasətində yaşanan kataklizimlər belə əməliyyatlar üçün yeni imkanlar yaradır. Türkiyə PKK terror qruplaşmasına qarşı antiterror əməliyyatı çərçivəsində İraqda hərbi əməliyyata başlayıb. Təsadüfi deyil ki, Türkiyənin yeni hərbi əməliyyatı fonunda Ermənistan sosial şəbəkələrində Türkiyə Baş Qərargahında Ermənistana qarşı hücum planının hazırlanaraq müzakirə olunduğu barədə informasiya kifayət qədər geniş yayılmaqdadır. Əslində, İsveç QHT-nin himayəsində olan "Nordic Monitor" saytı daha əvvəl də bu barədə məlumat yayıb. Yəni Türkiyədən gələn bu məlumat yeni deyil, bir neçə ay əvvəl də yayımlanmışdı. Buna qədər Rusiya amilinə görə Ermənistan arxayın ola bilərdi. Amma indi Rusiyanın mövqeyi dəyişir. Düzdür, Rusiya ilə Türkiyənin indi açıq-aşkar problemləri var, Moskva və Ankara Liviya ilə bağlı razılığa gələ bilmir, əslində isə Suriya ilə bağlı razılığa gələ bilmirlər. Hətta Rusiya-Türkiyə strateji ittifaqının rus ekspertləri də ittifaqın öz imkanlarını tükəndirməsindən danışırlar. Bu o deməkdir ki, həm Türkiyə, həm də Rusiya olduqca aqressiv ola bilər. Üstəlik, təkcə bir-birilə deyil, hazırda dominant tandem olan geosiyasi aktorlar Çin və ABŞ-ın da təsiri altında olma problemləri var. Bu arada Gürcüstanın xüsusi xidmət orqanları, verilən məlumata görə, Gürcüstanda Putinə qarşı açıq-aydın sərt ifadələrdən sonra şöhrət qazanan bir gürcü jurnalistinə sui-qəsd etmək niyyətində olan Rusiya vətəndaşını həbs ediblər. Gürcüstanın xüsusi xidmət orqanları Rusiya vətəndaşı vasitəsilə problemin həll edilməsi məsələsini Çeçenistan prezidenti Kadırovun həyata keçirməsindən şübhələnirlər. Kadırovun özü bu məlumatı təkzib edib. Ancaq problem, geniş mənada, Gürcüstan xüsusi xidmətinin əslində Türkiyə və Rusiya istiqamətindəki iki fəaliyyətidir. Bu fonda, cari həftə ərzində Ermənistanda baş verən daxili siyasi hadisələr və hökumətin bununla bağlı hərəkətləri olduqca diqqət çəkici ola bilər". Amatuni yazır ki, Ermənistandan narazı qalan Rusiya Türkiyə vasitəsilə İrəvanın sıxışdırılmasına göz yuma bilər.

Elə Rusiyanın "Kommersant" nəşri də yazır ki, Kreml İrəvandan getdikcə daha çox narazı qalır: "Respublikanın ikinci prezidenti Robert Köçəryanın həbsi, üçüncü prezident Serj Sarkisyana qarşı qaldırılan cinayət işləri, hüquq-mühafizə orqanlarına, bələdiyyəyə siyasi nəzarət, icra hakimiyyəti ilə məhkəmə hakimiyyəti arasındakı qarşıdurma var. Bütün bu hadisələri bir şey birləşdirir.

Bütün bunların ardınca "Çiçəklənən Ermənistan" partiyasının sədrinin həbsinə hazırlıq da Rusiyaya bağlı insanların sıradan çıxarılmasına yönəlik daha bir addım sayılır. Moskva isə bunları sakit seyr edə bilməz.

Hakimiyyət dəyişikliyindən sonrakı hökumət onun nəzarətindən kənarda qalan digər güc və təsir mərkəzləri ilə birlikdə hökm sürmək istəmir. Strateji baxımdan bu çətin bir yoldur. Bugünkü vəziyyət dəyişsə, baş nazirin əleyhdarlarının açıq cinayət işləri ilə ona eyni şəkildə əvəzini ödəmə niyyətləri istisna edilmir. Paşinyana qarşı olanların Rusiyaya bağlılığı burada diqqətdən yayınmamalıdır".

**Məhz belə vəziyyətdə Rusiyanın Ermənistana kənardan edilən təzyiqlərlə bağlı neytral bir mövqedə qalma ehtimalı artır. Çünki bununla Paşinyan iqtidarına həm də bir dərs verilir. Elə erməniləri də məhz bu vəziyyətdə Türkiyənin Qafqazda daha aktiv fəaliyyətə keçə biləcəyi narahat edir. Çünki bu halda Ermənistanın regionda mövqeyi daha zəif hala gələcək.**

***Nahid SALAYEV***

# Karantin qaydalarının 1 avqustadək uzadılmasından yan keçə bilərdik - vətəndaşlarımızın məsuliyyəti sonadək bütöv olsaydı...

***Əhməd Qəşəmoğlu:** "Bu qərarın verilməsinə zərurəti elə vətəndaşlar özləri yaradıblar"*



## "...mövcud tədbirlərin görülməsinin 4 əsas səbəbi var"

**Azərbaycanda koronavirusa yoluxanların sayının bu dərəcədə artmasının, əlbəttə ki, vətəndaş məsuliyyətsizliyindən irəli gələn amil olduğu danılmazdır. Son həftələrin təhlil və araşdırmaları da göstərir ki, gündəlik virusa yoluxanların sayının 300-dən artıq olması birbaşa məsuliyyət hissindən uzaq olan vətəndaşların qaydalara riayət etməməsi ilə bağlıdır.**

Vətəndaşlar qaydalara əməl etsəydilər, maska taxıb, sosial məsafə gözləsə, sanitar-gigiyena qaydalarına əhəmiyyət versəydilər, nə ölkəmizdə xüsusi karantin rejimi avqustun 1-nə qədər uzadılardı, nə də 21 iyundan 5 iyul 06:00-a qədər ciddi karantin rejimi elan olunardı.

Məlum olduğu kimi, Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva iyunun 18-də keçirilən brifinqdə ölkəmizdə karantin rejiminin avqustun 1-nə qədər uzadılacağını və 21 iyundan 5 iyul 06:00-a qədər ciddi karantin rejimi elan olunacağını bildirib. O, həmçinin, qeyd edib ki, Bakı, Gəncə, Yevlax, Sumqayıt, Lənkəran şəhərləri və Masallı, Cəlilabad, Abşeron rayonları üzrə SMS xəbərdarlıq və xüsusi icazə ilə evdən çıxmaq qaydası tətbiq ediləcək, eləcə də ticarət mərkəzlərinin fəaliyyəti, ictimai iaşə obyektlərində yerində xidmətlər dayandırılacaq.

Ekspertlər qeyd edirlər ki, dövlətin bu barədə qərar qəbul etməsinə yeganə səbəb vətəndaş məsuliyyətsizliyidir. Onlar hesab edirlər ki, vətəndaşlar məsuliyyətli davransaydılar, ölkəmiz çoxdan koronavirusla vidalaşa bilərdi. Hələ virusun ilk zəif dalğaları dünyada hiss olunduğu zaman Azərbaycan dövləti qabaqlayıcı tədbirlər görməyə başladı və bu yöndə hərtərəfli işlər həyata keçirməklə vətəndaşının sağlamlığına, təhlükəsizliyinə nə qədər önəm verdiyini ortaya qoydu. Amma çox təəssüf ki, bir qisim vətəndaşın buna əhəmiyyət vermədiyini və virusa məsuliyyətsiz yanaşdığını qeyd edən ekspertlərin sözlərinə görə, bunun nəticəsində də virus bu qədər yayıla bildi.

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, həm karantin rejiminin uzdılması, həm də ikihəftəlik xüsusi karantin rejiminin elan olunmasına səbəb vətəndaşların özləri olub. "Hesab edirəm ki, bu qərarın verilməsinə zərurəti elə vətəndaşlar özləri yaradıblar. Bizim başdan buraxdığımız səhv elə vətəndaş məsuliyyətsizliyi ilə bağlı olub. Yadınıza gəlirsə, virusun ilk günlərindən bizim sizinlə bu mövzuda çox söhbətimiz olub, "Bakı-Xəbər" TV-də bununla bağlı danışmışıq. Təəssüf ki, bizim əhali koronavirus bəlasını qarşılamağa hazır deyildi, hələ də hazır deyil. Aparılan maarifləndirmə işi də nəticə vermir. Bunun da səbəbi odur ki, maarifləndirmə mexanizmi lazımi səviyyədə deyil. İndiki maarifləndirmə 30 il əvvəlki qaydada aparılmamalıdır. Bu, yeni yanaşma tələb edən bir maarifləndirmə işi olmalıdır. Bu proses elmi əsaslarla aparılmalıdır. Mən bununla bağlı yeni təkliflər hazırlamışam və o təkliflər "İctimai liderlər" qrupuna da təqdim olunub, orada müzakirə edilib. Həmin qrupda millət vəkilləri də təmsil olunurlar. Mən həmin təkliflərdə maarifləndirmə işinin necə aparılması yollarını göstərmişəm. Maarifləndirmə işi aparılır, amma bu, əhaliyə təsir etmir.

Bir məqamı da deyim, hər gün Ələsgər Ələkbərov küçəsi ilə keçib gəlirəm. Ə.Ələkbərov küçəsi 12-də az qala bir aydır su borusu partlayıb və yerdə gölməçə əmələ gətirib, amma əlaqədar qurumlar o borunu təmir etmirlər. Bunun nəticəsində də gölməçədəki çirkab su ətrafa, evlərə çirkab yayır, insanlar üçün əlavə infeksiya mənbəyi yaradır. Koronavirusdan qorunmağa nə əhali hazırdır, nə də bəzi müvafiq qurumlar. Belə bir mənzərə yaranıb ki, camaata "maska tax" deyirik, evlərinə də çirkab sularla virus göndəririk. Bundan başqa, küçədə insanların çoxunu maskasız görürəm. Sosioloq olaraq mənim üçün maraqlı olduğu üçün küçədəki maskasız insanları saxlayıb soruşuram ki, siz nəyə etiraz edirsiniz, niyə maska taxmırsınız, sosial məsafə gözləmirsiniz? Deyir, ay müəllim, boş şeydir, virus yoxdur, bu bir siyasətdir. Deyirəm, onu sizə kim deyir? Bu gün vətəndaşlarımızın koronavirus infeksiyasına barmaqarası baxmasının və bunun nəticəsində də mövcud tədbirlərin görülməsinin 4 əsas səbəbi var. Mən bunu araşdırıb təhlil etmişəm. Azərbaycanda koronavirusun olmadığı barədə kimlərsə şayiə yayır, burada təxribatçı qruplar işlər görürlər. Birincisi, bu təxribatların yayılmasında maraqlı olanlar iri ticarət obyektlərinin, restoranların, şadlıq saraylarının, gözəllik salonlarının və şou-biznesin təmsilçiləridir. Onlar xalq arasında ciddi cəhdlə təxribatçı fikirlər, şayiələr yayırlar ki, "koronavirus yoxdur, bu uydurmadır". Onların yeganə məqsədi odur ki, bu şayiə ilə camaatı öz obyektlərinə cəlb etsinlər, pul qazansınlar, camaat virusa yoluxur-yoluxsun, təki bunlar pul qazansınlar. Ən böyük nadanlıq budur. İkincisi, burada xarici qüvvələrin də maraqlarını istisna etmirəm. Azərbaycanı istəməyən qüvvələr fürsətdən istifadə edərək koronavirusun bir müharibə olduğunu zənn edib, bizə qarşı təxribatlar törədir və bizim ölkədə vəziyyətin daha da pisləşməsinə çalışırlar. Onlar çalışırlar ki, bu cür şayiələr çoxalsın. Üçüncüsü, camaatın özündə koronavirusla bağlı bir etinazsızlıq, əhlikeyflik var, "Allah qoruyacaq deyirlər, Allah heç kimə demir ki, sən get özünü bəlaya sal, mən səni qoruyacağam, Allah insana şüur, düşüncə verib. Dördüncüsü, supermarketlərə girəndə görürsən ki, nə maska taxan var, nə sosial məsafə gözləyən, bundan əlavə, meyvə-tərəvəz, çərəz, çörək satan satıcıların da əlində əlcək, ağzında isə maska yoxdur. Bunlar hamısı infeksiya mənbəyidir. Hara baxırsan, orada insanların koronavirusa nadancasına yanaşmasının şahidi olursan və heyrətə gəlirsən. Bir qisim adam da keyfindən küçəyə çıxır, deyir ki, çıxmasam dünya dağılar. Bu cür yanaşma doğru deyil. Küçə də virus mənbəyidir. Küçəyə çıxırsansa, qaydalara əməl et".

Ə.Qəşəmoğlunun sözlərinə görə, bəzi məmurlar da vətəndaşlara laqeyd yanaşır, öz məsuliyyətlərini dərk etmir, Prezidentin çağırışlarını icra etmirlər. "Prezident bu qədər işlər görür, çıxışlar edir, tələblər irəli sürür, çağırışlar edir, amma bundan bəzi məmurlar nəticə çıxarmır, öz üzərlərinə düşən vəzifəni icra etmirlər. Əhalinin laqeyd davranışları nəticəsində ölkəmizdə virusa yoluxanların sayı bu cür artdı.

Ölkəmizdə karantin rejiminin sərtləşdirilməsi zəruri oldu. Televiziyaları şit, bayağı verilişlərdən uzaqlaşdırıb maarifləndirmə işinə səfərbər olmağa cəlb etmək lazımdır. Necə ki, İkinci Dünya Müharibəsi dövründə Sovet televiziyası və radiosu səfərbər olunmuşdu. Koronavirus müharibəsi İkinci Dünya Müharibəsindən də dəhşətli bir müharibədir. Evdə oturduğun yerdə bu infeksiyaya yoluxa bilərsən. Bu istiqamətdə görüləcək işlərimiz çoxdur" - deyə Ə.Qəşəmoğlu vurğuladı.

***İradə SARIYEVA***

# Azərbaycan karantin qaydalarını sərtləşdirən tək ölkə deyil, bütün dünya...

***Könül İsmayılova:** "Karantin rejiminin sərtləşdirilməsi Azərbaycan vətəndaşının sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır"*



*"Son dövrlər vətəndaşların əksəriyyəti karantin qaydalarına əməl etmədiyinə görə yoluxanlarla sağalanlar arasında fərq artıb"*

**Dünya üzrə indiyədək yeni növ koronavirus aşkarlanan insanların sayı 8 milyon 420 minə çatır. Pandemiyadan həyatını itirənlərin sayı isə 451 700-ü ötüb. Ən ağır vəziyyət yenə Amerika qitəsində müşahidə olunur. Bununla yanaşı, bir çox ölkədə virusa yeni yoluxmaların artması narahatlıq doğurmağa başlayıb.**

Artıq bəzi yerlərdə yenidən məhdudiyyətlərin tətbiq edilməsinə qərar verilib.

Belə ki, Liviya hökuməti koronavirusla mübarizə çərçivəsində yeni karantin qaydaları ilə bağlı yazılı açıqlama yayıb. Ölkədə həftənin cümə və şənbə günlərində komendant saatının tətbiq olunmasına qərar verilib. Bu hal təhlükəli virus tam bitənədək hər həftə davam edəcək. Digər günlər isə qadağaların axşam saat 20:00-dan səhər 6:00-a qədər tətbiq olunacağı açıqlanıb.

Almaniyada da koronavirusa yoluxanların sayında kəskin artım qeydə alınıb. Ölkədə əvvəlki gündə 338 nəfərin COVID-19 testi pozitiv çıxmışdısa, bir gün sonra bu rəqəm 645-ə yüksəlib. Bu arada, Almaniyada bütün böyük tədbirlərin oktyabr ayının sonuna qədər ləğvinə qərar verilib. Həmçinin, noyabr ayında ölkədə ənənəvi karnavallar da keçirilməyə bilər. Bu barədə Bavariya Federal Torpağının Baş naziri Markus Zöder kansler Angela Merkelin Almaniyanın 15 federal əyalət rəhbərləri ilə görüşündən sonra keçirilən brifinqdə deyib.

Yunanıstanda da koronavirusa yoluxma halları kəskin artıb. Ölkədə bir gündə 55 yeni yoluxma qeydə alınıb ki, bu da əvvəlki günlə müqayisədə 41 fakt çoxdur. Ölkənin şimalında yerləşən Rodope bölgəsində təhlükənin artması ilə əlaqədar yaşayış məntəqələrinin birində karantin və komendant saatı tətbiq olunub. Məhdudiyyətlər ölkənin şimalındakı Xanti bölgəsini də əhatə edir. Həmçinin, Yunanıstanın şərqində yerləşən Exinos qəsəbəsi COVID-19-la mübarizə tədbirləri çərçivəsində 7 gün ərzində tamamilə təcrid olunacaq. Buna iyunun 11-dən bəri qəsəbədə aşkar olunan 73 yeni yoluxma faktının qeydə alınması və son 3 gündə 4 nəfərin koronavirusdan ölməsi səbəb olub.

Ölkəmizdə də koronavirusa yoluxanların sayının artması nəticəsində karantin qaydaları yenidən sərtləşdirildi. Belə ki, iyunun 21-dən iyulun 5-dək Bakı, Sumqayıt, Gəncə, Yevlax, Cəlilabad, Lənkəran və Masallıda xüsusi məhdudiyyətlər tətbiq olunacaq. Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 18-də keçirilən iclasında qeyd edilib ki, bu yerlərdə vətəndaşlar SMS icazə ilə evdən çıxa biləcəklər. Dövlət və özəl təşkilatlarda işə çıxma ilə bağlı məhdudiyyətlər olacaq. Ticarət obyektləri bağlanacaq. Bərbərxana və gözəllik salonları, muzey və sərgi salonları bağlanır. Açıq havada idman oyunları qadağan edilir.

Psixoloq Könül İsmayılova bildirdi ki, karantin rejiminin sərtləşdirilməsi Azərbaycan vətəndaşının sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır: "Son günlərdə ölkədə koronavirus epidemiyasına yoluxma hallarının dinamikasına nəzər saldıqda xoşagəlməz bir mənzərə ilə rastlaşırıq. "Bu da ondan ibarətdir ki, infeksiyaya yoluxanlarla sağalanların dinamikası arasında ciddi fərq yaranmaqdadır. Baxmayaraq ki, pandemiya başladığı ilk zamanlarda cənab Prezidentin həyata keçirdiyi zəruri və təxirəsalınmaz tədbirlər nəticəsində həm yoluxma halları nəzarət altına alındı, həm də əhalinin sosial təminatı istiqamətində ciddi uğurlu addımlar atıldı. Görülən işlər sayəsində virusa yoluxanların sayı azaldı. Elə buna görə də karantin qaydaları yumşaldı. Təəssüflər olsun ki, bəzi vətəndaşlarımız karantin rejiminin yumşaldılması zamanı laqeydlik və məsuliyyətsizlik nümayiş etdirərək, qaydaları pozaraq, ona riayət etmədilər. Bundan sonra vəziyyət yenidən mənfiyə doğru getməyə başladı. Vətəndaşdan fərqli olaraq, dövlət, hər zaman olduğu kimi, bu dəfə də üzərinə düşən vəzifəni layiqincə icra etmək və prosesi nəzarətdə saxlamaq üçün koronavirusla bağlı vəziyyəti diqqətdə saxladı, vətəndaşları davamlı olaraq pandemiyadan qorunma qaydalarına və tövsiyələrinə əməl etməyə çağırdı. Hətta xəbərdarlıq etdi ki, vəziyyət nəzarətdən çıxa bilər, ikinci dalğa geri qayıda bilər. Acı nəticələr yaşana bilər. Lakin vətəndaşlarımız edilən bu çağırış və xəbərdarlıqlara yenə də əhəmiyyət verməyərək, məsuliyyətsiz davranışlarını davam etdirdilər. Çox təəssüf ki, zamanında əldə edilən uğurları qoruyub saxlamaq və tamamilə bu bəladan qurtulmaq mümkün olmadı. İndi də onun cəmiyyət olaraq hamımız acı nəticələrini yaşamaqdayıq".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, son dövrlər vətəndaşların əksəriyyəti karantin qaydalarına əməl etmədiyinə görə yoluxanlarla sağalanlar arasında fərq artıb. Buna görə karantin qaydaları sərtləşdirilib: "Karantin qaydalarının sərtləşdirilməsi tək ölkəmizdə yaşanmır. Əksər xarici ölkədə karantin qaydaları yenidən məhdudlaşdırılıb. Məlumdur ki, açıqlanan son statistikalarda koronavirusa yoluxanların sayı durmadan artır. Bu səbəbdən də məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsi vacib idi".**

***Günel CƏLİLOVA***

**Hazırda koronavirus pandemiyası dünyanı lərzəyə gətirib. Bütün dünya ölkələri bu virusun narahatlığını yaşayır. Gündə minlərlə insan bu virusa yoluxur və ya həyatını itirir. Bu gözlənilməz və xoşagəlməz proseslər Azərbaycanda da baş verir. Lakin hələ də Azərbaycanda koronavirusa inanmayanlar var.**

# Pandemiyaya inanmayanlar koronavirus xəstəxanalarında ictimai işlərə cəlb edilsə...



## *Əhməd Qəşəmoğlu: "Koronavirusa inanmayanlarla çox ciddi mübarizə aparmaq lazımdır"*

Bəziləri sosial məsuliyyətsizlik göstərərək qaydalara riayət etmirlər. Hansı ki, bu məsələ dövlət başçısı səviyyəsində diqqətə götürülüb və cəmiyyətə dəfələrlə çağırış edilib.

Prezident İlham Əliyev son çıxışlarında bir daha qeyd edib ki, koronavirus yoxa çıxmayıb: "İndi bütün ölkələrdə yumşaldıcı addımlar atılır, o cümlədən, Azərbaycanda. Buna baxmayaraq, mən onu da demişdim ki, əgər görsək xəstələrin sayı kəskin artır, yenə də məhdudlaşdıracağıq. Bu məhdudlaşdırıcı addımların səbəbi də bəllidir. Bəzi insanlar məsuliyyətsizlik göstərirlər. Ancaq, bütövlükdə, deyə bilərəm ki, Azərbaycan cəmiyyəti çox böyük məsuliyyət, nizam-intizam göstərir. Şənbə-bazar günlərində xüsusi karantin rejimi bunu göstərdi, qayda pozuntuları çox cüzi sayda olmuşdur. Bu onu göstərir ki, vətəndaşlar məsuliyyəti dərk edirlər. Ancaq hər bir vətəndaş bunu dərk etməlidir. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risq altına ata bilir".

Qeyd etdiyimiz kimi, hələ də koronavirusun varlığına inanmayanlar var. Onlar bu xəstəliyi inkar etməklə yanaşı, ətrafında olan insanları da virusun var olmamasına inandırmağa çalışırlar. Nəticədə isə yoluxma sayı sürətlə artır.

Koronavirusa inanmayanların cəzalandırılması, xəstəliyi lağ predmetinə çevirənlərin ictimai işlərə cəlb olunması təklif edilib. Belə ki, COVID-19-un mövcudluğuna inanmayanların pandemiya xəstəxanalarında ictimai işə cəlb olunması təşəbbüsü irəli sürülüb.

Sosioloq-şair Əhməd Qəşəmoğlu bildirdi ki, koronavirusa inanmayanlarla çox ciddi mübarizə aparmaq lazımdır: "İnsanlar maska taxmağı özlərinə sığışdırmırlar. Bu günlərdə getdiyim yolda qarşıma çıxan adamlardan cəmi 7-nin maskası vardı ki, onlardan da 3-4-ü onu çənəsinə salmışdı. Hamı da mənə maska taxdığıma görə kənardan qəribə baxırdı. Bu ciddi bəladır. Burada bir neçə faktor əsas rol oynayır. Bizim əhalinin inanmaqla bağlı problemləri var. Birincisi, etinasızdırlar ki, bu da yaxşı əlamət deyil. İkincisi, kafe və şadlıq saraylarının sahibləri, şou-biznes nümayəndələri, mollalar dəridən-qabıqdan çıxırlar ki, camaat arasında koronavirusun olmaması ilə bağlı fikir yaratsınlar. Digər tərəfdən, bu cür vəziyyətin yaranması düşmənlər üçün də arzuolunandır. Onlar istəyirlər ki, xəstəlik çox yayılsın. Gündəlik statistika da göstərir ki, yoluxanların sayı xeyli artıb. Bir vaxtlar gündə 20-25 xəstə aşkar olunurdusa, indi bu rəqəmlər 10 dəfə artıb. Bütün bunlar ona görədir ki, bizim əhalini, kobud da desək, bir az tərbiyələndirmək lazımdır. Bizim xalq gözəl xalqdır. Yəni xalqla əhalini qarışdırmayaq. 50-60 yaşında adam, ya elə cavan nəsil görürsən ki, sağa-sola tüpürə-tüpürə gəzir. Yaxud da asqıranda-öskürəndə ağzını bağlamayan kim, qucaqlaşıb öpüşən kim. Onlardan soruşuram ki, bəs koronavirusdan qorxmursunuz? Mənə təəccüblə baxıb deyirlər ki, ağsaqqal, sən bilməzsən, bunlar oyundur.

> *"Xalqın taleyi üçün hər hansı bir məsələdə maarifləndirmə effekt vermirsə, orada inzibati metodlara keçmək lazımdır"*

Haradan bildiklərini soruşanda da başlayırlar ki, biz bilirik. Elə bilirlər ki, mənim bu olanlardan xəbərim yoxdur. Yəni camaat arasında ictimai rəyi "yanlış" fomalaşdıran və buna maraqlı qüvvələr var. Bəzi insanların özü bu barədə gerizəkalılıq edirlər. Xalqın taleyi üçün hər hansı bir məsələdə maarifləndirmə effekt vermirsə, orada inzibati metodlara keçmək lazımdır. Cərimə və ya hansısa cəza tətbiq edilməlidir. Başqa yolu yoxdur. Adama deyirsən ki, bu sənin ziyanınadır, etmə, başlayırlar səni lağa qoymağa. Yəni ciddi mənada tədbir görmək lazımdır. Bura İran deyil ki, küçədə şallaqlayaq, amma yolunu tapmaq lazımdır".

**Günel CƏLİLOVA**

---

**"Poliknik müşahidə altında xəstələrin evdə müalicə olunması ilə bağlı hazırlıq işləri yekunlaşır. Bununla bağlı bir sıra ölkələrin təcrübəsindən istifadə ediləcək. E-təbib mobil tətbiqi hazırlanır və bu sistemlə evdə müalicə olunan xəstələri izləmək mümkün olacaq.**

# Koronavirusu yüngül formada keçirənlərin ev şəraitində müalicəsi Azərbaycanda necə effekt verə bilər...



## ***Vasif İsmayıl:*** *"Ev şəraitində müalicəni davam etdirən insanlar güclü immun sisteminə malik olması üçün həyat tərzini dəyişməli və..."*

## ***Adil Qeybulla:*** *"Xəstəliyi yüngül formada keçirənlər müalicəni ev şəraitində davam etdirə bilərlər"*

Evdə müalicə olunan şəxslər 12 saatdan bir sorğu ediləcək və qərara əsasən, müalicələrin ev və ya xəstəxana şəraitində davam etdirilməsi barədə qərar qəbul ediləcək". Bu sözləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində çıxışı zamanı deyib.

Qeyd edək ki, bir sıra ölkələrdə artıq koronavirusun yüngül formasına yoluxmuş şəxslər ev şəraitində müaliəcəni davam etdirirlər.

Həkim Vasif İsmayıl bildirdi ki, ev şəraitində müalicəni davam etdirən insanlar güclü immun sisteminə malik olması üçün həyat tərzini dəyişməli və C vitamini ilə zəngin qidalar qəbul etməlidirlər: "Koronavirusdan qorunmaq üçün əvvəlcə şəxsin immun sistemi yaxşı olmalıdır. Müraciət edən şəxslər bu sistemi ayaqda tutmağın yollarını soruşurlar. İmmun sistemini gücləndirən dərman vitamin C-dır. Amma bu dərmanı da artıq istifadə etdiyiniz zaman dərman sağlamlığa zərərli ola bilər. İmmun sistemini gücləndirmək üçün öncə həyat sistemində dəyişiklik etmək lazımdır. Yəni yaxşı yatacaqsınız, evdə idman edəcəksiniz. İkincisi, düzgün qidalanmaq lazımdır. Qidalardan immun sistemini gücləndirən məhsullar rəngli meyvələr və tərəvəzlərdir. Xüsusən qırmızı və narıncı rəngdə olan meyvələrdir. Gün ərzində 2 litr maye qəbul etmək lazımdır ki, onun da yarısı su və ya limonlu su olmalıdır. 1 litr maye isə yəqin ki, çay olacaq. Mən yaşıl çay içməyi məsləhət görürəm. İmmun sistemini gücləndirmək üçün zəncəfil və darçından istifadə etməklə çay içmək lazımdır. Həmin çaya bal da əlavə etmək olar".

Professor, həkim-ekspert Adil Qeybulla qeyd etdi ki, koronavirusa yoluxanların sayı günügündən artır. Xəstələrin sayı artdıqca, onların müalicəsində müəyyən problemlər yaşanır. Düzdür, xəstəxanalarda xəstə qəbulu, onun müalicəsində heç bir problem yaşanmır. Ancaq xəstə sayı artdıqca, xəstəliyi yüngül formada keçirənlər müalicəni ev şəraitində davam etdirə bilərlər.

Həmsöhbətimiz onu da əlavə etdi ki, insanlar karantin qaydalarına riayət etmirlər, yaxın vaxtlarda biz çox böyük yoluxma potensialı ilə üzüzə qalacağıq: "Burada lovğalanmaq, ya da müvəqqəti uğurlarla öyünməyin yeri deyil. Biz situasiyanın ciddiliyini dərk etməliyik. Məsələ bundan ibarətdir ki, bizim camaat miflərə, falçılara, mistik şeylərə inanan camaatdır. Neçə müddətdir yazılır ki, ən mühüm qaydalara əməl etmək lazımdır. Bunlar sadə şeylərdir: maska taxmaq, sosial məsafə gözləmək, dezinfeksiya tədbirləri və s. Amma bu kimi sadə tövsiyələrə əməl etmirlər. Nəticədə isə virusa yoluxanların sayı sürətlə artır".

**Günel CƏLİLOVA**

№ 98 (4229) ■ Qiymətі: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

20-22 İYUN 2020-ci il



# Alimlər ağciyərləri koronavirusdan qoruyan qidaları açıqladı

**İspan dietoloq Alexandro Kanovas ilə İspaniyanın Pulmonologiya və Torakal Cərrahiyyə Cəmiyyətinin (SEPAR) rəhbəri Eusebi Çiner "La Vanguardia"ya verdiyi müsahibədə ağciyərləri koronavirusdan qorumağa kömək edən məhsulları açıqlayıblar.**

Milli.Az xəbər verir ki, Kanovasın sözlərinə görə, yumurta, düyü, mavi balıq və qoz tənəffüs sistemini gücləndirməyə kömək edə bilər. Çiner isə hesab edir ki, ağciyərin vəziyyəti pisləşdikdə bədənin zülala ehtiyacı artır. Xüsusilə yumurtalarda A vitamini kimi yağda həll olunan vitaminlər, eləcə də yüksək keyfiyyətli zülallar var. Bundan əlavə, pomidor, bütün süd məhsulları və su ağciyərin vəziyyətinə müsbət təsir göstərir. Xüsusilə, pomidor, antioksidant olaraq tənəffüs problemlərinin qarşısını almağa kömək edən yaxşı C vitamini mənbəyidir. Pulmonoloq Eusebi Çinerin qənaətincə, sağlam həyat tərzinə əməl etsəniz, virus səbəbilə ağciyərin zədələnməsinin əksər halının nəticələri minimuma endirilə bilər. O, düzgün bəslənmədən əlavə, yuxu rejiminə riayət etmənin və fiziki aktivliyin önəmini vurğulayıb. Bundan əvvəl rusiyalı dietoloq Vera Şaroşkina koronavirus epidemiyasında faydalı olan qidaları açıqlamışdı. Onun fikrincə, bunlar qatıq, kombuça, göyərti və qaraciyərdir.

## Buxar vannası faydalıdırmı?

**Dərisinin təravətinə xüsusi önəm verən qadınları maraqlandıran məsələlərdən biri də budur: cild təmizliyi üçün tətbiq edilən buxar metodu faydalıdırmı?**

Milli.Az xəbər verir ki, tıxanmış sızanaqları açan və qidalanma maskalarının dəriyə daha yaxşı hopmasını təmin etdiyi düşünülən buxar metodu, əslində, bilinən təsirlərə malik deyil. Çünki qara nöqtələrin üzü onsuz da hər zaman açıqdır. Bunun üçün xüsusi metod tətbiq etməyə ehtiyac yoxdur. Lakin buxar metodunun başqa faydaları mövcuddur. Quru, soyuq hava şəraitində olmusunuzsa, axşam 20 dəqiqəlik buxar seansı etmək üz dərinizi rahatlaşdıracaq, qan dövranını sürətləndirəcək, havadan hopmuş tozları və ölü dəri hüceyrələrini təmizləyəcək. Bununla yanaşı, dərinin nəmlənməsinə kömək edəcək. Əgər dəriniz qurudursa, buxar vannasını tətbiq etdikdən sonra nəmləndirici kremlərdən istifadə etməyi unutmayın!





## NASA-nın uçuş proqramına ilk dəfə qadın rəhbərlik edəcək

**NASA-nın uçuş proqramına ilk dəfə qadın rəhbərlik edəcək. Ted.az bildirir ki, bu missiyanı Keti Lyuders həyata keçirəcək.**

Keti Lyuders əvvəllər də 9 il Amerikanın Beynəlxalq Kosmik Stansiyadakı gəmisinin işə salınmasına rəhbərlik edib. Yeni təyinat barədə NASA-nın direktoru Cim Braydenstayn özünün "Tvitter" hesabında məlumat verib. O, Lyudersin vəzifəsinin öhdəsindən layiqincə gələcəyinə inandığını bildirib.

## Türkiyənin ilk milli elektrikli qatarından müjdəli xəbər...

**Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Adil Karaismailoğlu milli elektrikli qatar haqqında vacib detalları ictimaiyyətlə paylaşıb.**

Milli.Az ted.az-a istinadən bildirir ki, A.Karaismailoğlu qatarın avqustun 30-da ilk test səfərinə çıxacağını deyib. Nazir qeyd edib ki, qatar il başa çatmadan istismara veriləcək. Qeyd edək ki, TÜVASAŞ tərəfindən istehsal edilən qatarın maksimum sürəti saatda 160 kilometr olacaq. Eyni zamanda, saatda 225 kilometr sürətlə hərəkət edəcək başqa qatarın da istehsal prosesinin davam etdiyi bildirilir. Alüminum gövdəyə malik qatar 324 sərnişin üçün nəzərdə tutulub. Bu yerlərdən ikisi isə fiziki məhdudiyyətli şəxslərə ayrılıb.




**Qoç** - Çətinliklər çox olsa da, geri çəkilməyin. Səbrli və qətiyyətli olun, problemləri dəf etməyə çalışın. Yeni işgüzar münasibətlər başlaya bilər. İş yerinin dəyişdirilməsi ilə bağlı təkliflər alacaqsınız.


**Buğa** - Nəzərdə tutduğunuz işləri həyata keçirmək üçün səylə çalışın. Qarşınızda yeni imkanlar və perspektivlər yaranır. Maraqlı ideyalarınız az deyil. Onları həyata keçirməmək üçün ciddi səbəblər yoxdur.


**Əkizlər** - İdeyalarınızın hamısını həyata keçirmək mümkün deyil. Peşəkar fəaliyyət müstəvisindəki mühüm məsələlərin reallaşdırılması zamanı tələsikliyə yol verməyin. Ciddi səhv, yanlışlıq riski var.


**Xərçəng** - Günün ilk yarısı əlverişlidir. Məhsuldar fəaliyyət, konstruktiv işgüzar təmaslar zamanıdır. Aktual məsələlər nə qədər çətin olsa da, onları həll etmək çətin deyil. Məmurlar, dövlət orqanlarının mənsubları ilə ünsiyyət üçün pis vaxt deyil.


**Şir** - Uzun müddətdən bəri qurduğunuz, amma həyata keçirə bilmədiyiniz planların reallaşdırılması üçün əlverişli gündür. Prinsipial olaraq yeni işə başlamaq olar. İntuisiyanıza inanın.


**Qız** - İstənilən səviyyədə işgüzar danışıqlar aparmaq üçün əlverişli zamandır. Nüfuzlu insanlarla söhbət zamanı özünüzlə bağlı xoş təəssürat yaratmağa çalışın. Bilik və bacarıqlarınızı nümayiş etdirin.


**Tərəzi** - Təbəddülatlı, qarışıq, laübəli gündür. Nikbin olun. Başladığınız işləri bitirməyə, ciddi səhvlərə yol verməməyə çalışın. Bütün səylərə rəğmən işlər istədiyiniz kimi olmayacaq.


**Əqrəb** - Ağır və qarışıq da olsa, uğurlu gündür. İşdə həmkarlarla rəhbərlik səbr kasanızı doldurmağa, emosiyalarınızı tarıma çəkməyə çalışacaqlar. Kobud səhvlərə yol verməyin, təxribatlara uymayın.


**Oxatan** - Bütün problemləri təkbaşına, müstəqil şəkildə həll etməyə çalışmayın. Məsləhət və ya yardım ala biləcəyiniz insanlar yanınızdadır. Dostluq və romantik münasibətləri yeniləmək üçün münasib zamandır.


**Oğlaq** - Peşəkar fəaliyyət baxımından uğurlu gündür. Maliyyə məsələlərinin həllində ehtiyatlı olun. İzafi xərclərə yol verməyin. İşgüzar maraqlarınızla yanaşı, həyata baxışlarınızı bölüşən insanla əməkdaşlığa başlamaq üçün əlverişli vaxtdır.


**Dolça** - İşgüzar danışıqlar və görüşlər üçün əlverişli gündür. Az sonra əməkdaşlıq edəcəyiniz insanlarla aktiv ünsiyyətdə olun. Həddən artıq tələbkar, təmaslarınıza diqqət verən insanda özünüzlə bağlı xoş təəssürat yaratmağa çalışın.


**Balıqlar** - Mənfi təmayüllərin təsiri artır. Neqativ durum daha çox peşəkar fəaliyyət sahəsində özünü göstərir. Bir çox işlər alınmayacaq. İlk baxışdan heç bir səbəb olmadan fəaliyyətdə problemlər yaranacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Macarıstanda heykəllərə də maska taxırlar



**Son vaxtlar Macarıstanda bir çox heykəl, büst və abidədə üz maskası görmək mümkündür.**

AZƏRTAC bildirir ki, adi vətəndaşlar və hətta uşaqlar heykəl qəhrəmanlarının üzlərinə maska taxır, bununla da öz həmvətənlərini, əslində, hər kəsi bezdirən koronavirus pandemiyası dövründə ciddi təhlükəsizlik tədbirlərinə riayət etməyə çağırırlar. Polis buna əngəl törətmir, əksinə, anlaşıqlı və hətta yumorla yanaşır, bunda heç bir qanunazidd hərəkət görmür.

*Hazırladı: Namiq QULİYEV*

## Elan

Qafarov Qafur Hacıbəy oğlu və ailə üzvlərinin adına, Qusar Rayon Aqrar İslahatı Komissiyasının 28 dekabr 2001-ci il tarixli, 14/1 saylı qərarı ilə verilmiş JN 0141 KOD 30123048 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.